

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Fransanın hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib"


NOTICIAS
Siria insta ante NOAL a la unión en la lucha antiterrorista

5

№ 118 (6801)

# SƏS

8 iyul 2023-cü il.
Qiyməti 60 qəpik

# Azərbaycan-Albaniya: tərəfdaşlıq üçün yeni hədəflər



2

*İlham Əliyev: "Azərbaycanla Albaniya yaxın dost və qardaş ölkələr olaraq bir yerdə işləyir, əməkdaşlığımızın perspektivləri həqiqətən də parlaqdır"*

# Bakı toplantısı:

## TUTARLI FAKTLAR, ARQUMENTLƏR, TÖVSİYƏLƏR...



*Qoşulmama Hərəkatının Bakıda keçirilən Əlaqələndirmə Bürosunun iclasında Azərbaycan Prezidenti cənab İlham Əliyevin tutarlı arqumentlər və dəyərli tövsiyələrlə zəngin çıxışı yaddaşlara həkk olundu, çünki bu çıxış qanunsuzluğa ədalətsizliyə, haqsızlığa, ayrı-seçkiliyə qarşı kəskinliyi ilə qətiyyən diqqətdən yayına bilməzdi.*

8

## Ermənistan Zəngəzur dəhlizinin açılmasına mane olur



11

## Söz əməlin kölgəsidir!



9

## Ağıl dərsi



10

## "Separatçılar Xankəndidən qaçmağa hazırlaşır"



13

## Qarpız kəsdim bal kimi: Dilimlədim, zəhərdi ki!



16

# Azərbaycan-Albaniya: tərəfdaşlıq üçün yeni hədəflər

***"Hazırda Azərbaycanla Albaniya yaxın dost və qardaş ölkələr olaraq bir yerdə işləyir, əməkdaşlığımızın perspektivləri həqiqətən də parlaqdır". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Albaniya Prezidenti Bayram Beqayla keçirilən geniş tərkibdə görüş zamanı bildirib. Dövlət başçısı qeyd edib ki, çünki burada bizim dostluğumuz, qarşılıqlı maraq və gələcəklə, ikitərəfli münasibətlərin irəli aparılması və əməkdaşlığın gücləndirilməsi ilə bağlı aydın baxış kimi möhkəm təməl var. Əməkdaşlığın əsasını təşkil edən mühüm amilin enerji sahəsinin inkişafı məsələləri olduğunu vurğulayan Prezident İlham Əliyev bu istiqamətdə daha çox planların olduğunu diqqətə çatdırıb.***



*İlham Əliyev: "Azərbaycanla Albaniya yaxın dost və qardaş ölkələr olaraq bir yerdə işləyir, əməkdaşlığımızın perspektivləri həqiqətən də parlaqdır"*

Daha sonra prezidentlər birgə mətbuat konfransı keçiriblər. Albaniya Prezidenti Bayram Beqay bildirib ki, Albaniya və Azərbaycan enerji sektorunda əməkdaşlıqla bir-birinə sıx bağlıdır. "TAP artıq birləşmiş uğur hekayəsidir. Albaniyanın TAP-dan faydaları həm iqtisadi baxımdan, həm də regional enerji çıxışı və qovşağı kimi strateji əhəmiyyətinin güclənməsi baxımından çox olub. Adriatik-İonik qaz kəməri Albaniyanın





regionda qazpaylayıcı kimi roluna daha çox töhfə verəcək. Azərbaycanla sıx əməkdaşlıq şəraitində Albaniyanın qazla təchiz olunması çərçivəsində qəti addımlar atmağa hazır olduğunu Prezident İlham Əliyevin diqqətinə çatdırdığını qeyd edən Bayram Beqay deyib: "Albaniyanın qaz tranziti ölkəsi olması artıq reallıqdır. Albaniyanın qaz qəbul edən və nəql edən ölkə olması məqsədini qarşımıza qoymuşuq. Ölkəmiz buna nail olmağa və əməkdaşlığı daha da dərinləşdirməyə sadiqdir".

Albaniya Prezidenti qeyd edib ki, Azərbaycanın regional enerji layihələrinin inkişafına artmaqda olan diqqəti Qərbi Balkan ölkələrini daha da yaxınlaşdıracaq, eyni zamanda, onların enerji təhlükəsizliyini gücləndirəcək.

"Azərbaycanda olmaqdan və dostum Prezident İlham Əliyevlə bir daha görüşməkdən böyük məmnunluq duyuram. Bu il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü qeyd olunur. Əlaqələrimiz bu gün həmişəkindən daha yaxşı səviyyədədir. Bu əlaqələri daha da gücləndirməyə verdiyi zəruri töhfəyə görə Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm."

Ötən il Azərbaycan Prezidentinin Albaniyaya ilk dəfə səfər etdiyini xatırladan Bayram Beqay deyib: "Məmnunam ki, səfər öz təsirini dərhal göstərdi. Çox çəkmədən Azərbaycan parlamenti Tiranada səfirlik açmaq barədə qərar qəbul etdi. Albaniya da 2023-cü ildə Bakıda səfirliyin açılması ilə bağlı analoji qərar qəbul etdi. Bu qərarlar ölkələrimizi bir-birinə daha da yaxınlaşdıracaq, artıq mükəmməl olan əlaqələri, yüksək səviyyəli siyasi dialoqu daha da gücləndirəcək, eləcə də iqtisadi əməkdaşlığı və digər məsələləri təşviq edəcək".

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib. Dövlətimizin başçısı qeyd edib ki, ölkəmizdə Albaniya Prezidentinin rəsmi səfərinə çox böyük önəm verilir. Azərbaycan Prezidenti qeyd edib ki, biz dostluq və qarşılıqlı dəstəyə əsaslanan ikitərəfli əlaqələrimizdə çox xüsusi dinamika yaratmışıq:

"Biz beynəlxalq təşkilatlarda fəal çalışırıq, ilk növbədə Birləşmiş Millətlər Təşkilatında və İslam Əməkdaşlıq Təşkilatında bir-birimizə dəstək veririk. Eyni zamanda, biz Azərbaycanın olmadığı təşkilatlarda ölkəmizi dəstəklədiyinə görə Albaniyaya çox minnətdarıq. Ötənilki Frankofoniya Sammitində Azərbaycana verdiyi dəstəyə görə mən cənab Prezidentə və Albaniya hökumətinə artıq öz minnətdarlığımı bildirdim. O vaxt Frankofoniya təşkilatının üzv dövlətlərindən biri yekun sənədə bir bəndi əlavə etmək və qəbul etdirməyə cəhd göstərdi. Bu, anti-Azərbaycan mahiyyəti olan bənd idi.

Albaniya həmin bəndi bloklayan ölkə oldu. Həmin addım dostluğun, eləcə də ölkələrin ərazi bütövlüyü və suverenliyi kimi beynəlxalq hüququn əsas prinsiplərinə qəti sadiqliyin təzahürü oldu. Hətta Azərbaycan özünü müdafiə etmək fürsətinə malik olmadığı təşkilatlarda belə, bizim Albaniya kimi qardaş ölkəmiz var və o, bu dəstəyi verdi. Buna görə biz çox minnətdarıq.

Bu gün biz, əlbəttə, ölkələrimiz arasında gələcək siyasi münasibətləri, beynəlxalq təşkilatlarda birgə fəaliyyətimizi müzakirə etdik. Eyni zamanda, birmənalı olaraq gündəliyimizdə duran ticari, iqtisadi məsələləri, sərmayə imkanlarını nəzərdən keçirdik. Mən bir daha vurğuladım ki, Azərbaycan sərmayədarları Albaniyada istər turizm, istər kənd təsərrüfatı və ya hər hansı digər sahədə sərmayə layihələrini ciddi araşdırmağa hazırdırlar. Hesab edirəm ki, gələn aylarda bizim bu haqda daha çox məlumatımız olacaq və həmçinin münasibətlərimizdə yeni səhifə açılacaq. Bu vaxta qədər əməkdaşlığımızın əsas meyarı enerji sektoruna aid olub. Həmin əməkdaşlıq nəinki ölkələrimiz, o cümlədən böyük sayda digər ölkələr, xüsusən də Cənub Qaz Dəhlizinin hissəsi olan TAP üçün əhəmiyyətlidir. Həmin boru kəməri Albaniyanın ərazisindən keçir. Hazırda o, enerji təhlükəsizliyinin mənbəyidir, Azərbaycan və Avropa İttifaqının qaz təchizatı sahəsində fəal işini, eləcə də Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Enerji sahəsində Strateji Tərəfdaşlıq sənədini nəzərə alsaq, bütün bunlar, təbii ki, ölkələrimiz arasında sıx əməkdaşlıq üçün mühüm meyarlardır. Çünki bir çox Avropa ölkələri üçün enerji təhlükəsizliyi, həmçinin Cənub Qaz Dəhlizi vasitəsilə təmin edilir. Həmin ölkələrin sayı artır. Avropa İttifaqı bazarına Azərbaycanın təbii qaz ixracı artır. Həcmlər artır və onun coğrafiyası genişlənir.

***Ardı Səh. 3***

# Azərbaycan-Albaniya: tərəfdaşlıq üçün yeni hədəflər



Əvvəli-Səh-2

Bu ilin sonunadək biz Avropa İttifaqına üzv olan daha çox sayda ölkələrin Azərbaycandan təbii qazı alacağını gözləyirik. Həmçinin əvvəlki təmaslarımızda müzakirə olunan mövzulardan biri Albaniyanın qazlaşdırılması layihəsi idi və sınaq layihəsi seçilmişdi. Bu gün bizə nümayəndə heyətlərinin üzvləri tərəfindən məlumat verildiyi kimi, işlər cədvələ uyğun gedir və ilin sonunadək bizdə artıq bu layihənin texniki-iqtisadi əsaslandırılması olacaq. Bundan sonra isə ümid edirəm ki, biz dərhal investisiyalara başlayacağıq.

## Prezident İlham Əliyev: "Azərbaycan investorları Albaniyada sərmayə layihələrini nəzərdən keçirməyə hazırdırlar"

Bu, qazpaylayıcı şəbəkəsini qurmaq üçün Albaniyaya yatırılacaq xalis Azərbaycan investisiyası olacaq. Həmçinin biz infrastrukturumuzu Albaniyadan qonşu ölkələrə necə genişləndirəcəyimizi də müzakirə etdik.

Bizim indi Tiranada səfirliyimizin olması məni çox sevindirir. Bu, həmçinin mənim Albaniyaya səfərim zamanı qəbul edilmiş qərar idi və Bakıya qayıdan kimi növbəti gün qərar qəbul edilmişdir. Tiranadakı səfirliyimiz artıq öz fəaliyyətinə başlayıb. Bu, ikitərəfli əlaqələrimizi inkişaf etdirmək üçün çox güclü qarşılıqlı siyasi iradənin mövcud olduğunu göstərir və tərəfimizdən qəbul edilən qərarların hamısı icra olunur."

## Bayram Beqay: "Albaniya hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib"

Beynəlxalq hüquq normalarına, qarşılıqlı inam və etimada, faydalı əməkdaşlığa əsaslanaraq, xarici siyasətini həyata keçirən Azərbaycan dünya dövlətləri, eləcə də qonşu dövlətlərlə münasibətlərini daha da inkişaf etdirməyə nail olub. Bu gün dünya dövlətləri ilə qarşılıqlı etimad səviyyəsində qurulan diplomatik əlaqələr yüksək bir mərhələdədir. Mərkəzi və Şərqi Avropa ölkələri, o cümlədən Albaniya ilə müxtəlif sahələri əhatə edən ikitərəfli əməkdaşlıq Azərbaycanın xarici siyasətinin daha bir təzahürüdür. Azərbaycan ilə Albaniya arasında ikitərəfli münasibətlər iqtisadi, ticari, enerji, turizm və digər sahələri əhatə edir.

### "AZƏRBAYCANLA ALBANİYA ARASINDA YÜKSƏK SƏVİYYƏDƏ SİYASİ DİALOQUN ÇOX YAXŞI DİNAMİKASI VAR"

Ötən ilin noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasına ilk səfəri ölkələrimiz arasında yüksək səviyyədə olan münasibətlərin, dialoqun daha da inkişafına təkan oldu. Dövlət başçısının bu səfəri dövlətlərarası münasibətlərin daha da inkişafına, xalqlar arasında əməkdaşlığın genişləndirilməsinə müsbət təsirini göstərir. "Biz çox sıx dostluq münasibətləri qurmuşuq və Azərbaycanla Albaniya arasında yüksək səviyyədə siyasi dialoqun çox yaxşı dinamikası var", - deyən Cənab Prezident bunun ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi baxımından mühüm amil olduğunu söyləyib. Hər iki dövlətin beynəlxalq təşkilatlarda fəal çalışdığını qeyd edən Cənab Prezident qeyd edib ki, ilk növbədə Birləşmiş Millətlər Təşkilatında və İslam Əməkdaşlıq Təşkilatında bir-birimizə dəstək veririk: "Eyni zamanda, biz Azərbaycanın olmadığı təşkilatlarda ölkəmizi dəstəklədiyinə görə Albaniyaya çox minnətdarıq. Ötənilki Frankofoniya Sammitində Azərbaycana verdiyi dəstəyə görə mən cənab Prezidentə və Albaniya hökumətinə artıq öz minnətdarlığımı bildirdim. O vaxt Frankofoniya təşkilatının üzv dövlətlərindən biri yekun sənədə bir bəndi əlavə etmək və qəbul etdirməyə cəhd göstərdi. Bu, anti-Azərbaycan mahiyyəti olan bənd idi".

### "AVROPA İTTİFAQI BAZARINA AZƏRBAYCANIN TƏBİİ QAZ İXRACI ARTIR"

Son illərdə bu əməkdaşlıq həm siyasi, həm də iqtisadi sahədə dinamik şəkildə inkişaf edib. Görüş çərçivəsində ikitərəfli gündəlik, regional məsələlərə, təhlükəsizlik mövzusuna və əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıb. "Hazırda Azərbaycanla Albaniya yaxın dost və qardaş ölkələr olaraq bir yerdə işləyir, əməkdaşlığımızın perspektivləri həqiqətən də parlaqdır", - deyən Cənab Prezident qeyd edib ki, burada bizim dostluğumuz, qarşılıqlı maraq və gələcəklə, ikitərəfli münasibətlərin irəli aparılması və əməkdaşlığın gücləndirilməsi ilə bağlı aydın baxış kimi möhkəm təməl var. Əməkdaşlığın əsasını təşkil edən mühüm amil enerji sahəsinin inkişafı məsələləridir. Qaz təchizatı məsələlərinə gəldikdə isə, bildiyimiz kimi, Azərbaycan və Albaniya TAP layihəsinin üzvləridir. Albaniya Azərbaycan tərəfinin ölkənin enerji infrastrukturunda aktiv iştirakında maraqlıdır. Albaniyanın yüksək səviyyəli rəsmiləri Cənub Qaz Dəhlizi Məşvərət Şurasının bütün iclaslarında iştirak edib və layihənin icrasına töhfə veriblər. Albaniya TAP vasitəsilə Cənub Qaz Dəhlizinin iştirakçısıdır. TAP layihəsi üzrə Hökumətlərarası Saziş 2013-cü ilin fevral ayında Albaniya, İtaliya və Yunanıstan dövlətləri arasında imzalanmış və 2016-cı ilin mart ayından tikinti işləri başlanılmışdır. 2020-ci ilin dekabrın 31-də TAP boru kəməri vasitəsilə kommersiya qazının nəqlinə başlanılmışdı. Hər iki dövlət Cənub Qaz Dəhlizinin icrasında müstəsna rol oynayıblar. Mətbuata bəyanatında dövlət başçımız Azərbaycan ilə Albaniya arasında enerji sektorunda əməkdaşlığın nəinki ölkələrimiz, o cümlədən böyük sayda digər ölkələr, xüsusilə də Cənub Qaz Dəhlizin hissəsi olan TAP layihəsində iştirak edən ölkələr üçün əhəmiyyətli olduğunu bildirib. Həmin boru kəmərinin Albaniyanın ərazisindən keçdiyini və hazırda enerji təhlükəsizliyinin mənbəyi olduğunun diqqətə çatdırıb. Dövlətimizin başçısı deyib ki, Azərbaycan və Avropa İttifaqının qaz təchizatı sahəsində fəal işini, eləcə də Aİ ilə Azərbaycan arasında imzalanmış Enerji sahəsində Strateji Tərəfdaşlıq sənədini nəzərə alsaq, bütün bunlar, təbii ki, ölkələrimiz arasında sıx əməkdaşlıq üçün mühüm meyarlardır: "Bir çox Avropa ölkələri üçün enerji təhlükəsizliyi, həmçinin Cənub Qaz Dəhlizi vasitəsilə təmin edilir. Həmin ölkələrin sayı artır. Avropa İttifaqı bazarına Azərbaycanın təbii qaz ixracı artır. Həcmlər artır və onun coğrafiyası genişlənir. Bu ilin sonunadək biz Aİ-yə üzv olan daha çox sayda ölkənin Azərbaycandan təbii qazı alacağını gözləyirik".

### "ALBANİYANIN QAZLAŞDIRILMASI LAYİHƏSİ İLƏ BAĞLI İŞLƏR CƏDVƏLƏ UYĞUN GEDİR"

Müasir dünyamızda Azərbaycan qazı Avropanın enerji təhlükəsizliyinə də öz töhfəsini verir. 2022-ci ilin iyul ayında Azərbaycanla Avropa Komissiyası arasında enerji sahəsində strateji əməkdaşlıq üzrə Anlaşma Memorandumu imzalanıb. Prezident İlham Əliyev Albaniya Prezidenti Bayram Beqayla mətbuata bəyanatında onu da bildirib ki, Albaniyanın qazlaşdırılması layihəsi ilə bağlı işlər cədvələ uyğun gedir: "Bu ilin sonunadək bizdə artıq bu layihənin texniki-iqtisadi əsaslandırılması olacaq. Bundan sonra isə ümid edirəm ki, biz dərhal investisiyalara başlayacağıq. Bu, qazpaylayıcı şəbəkəsini qurmaq üçün Albaniyaya yatırılacaq xalis Azərbaycan investisiyası olacaq".

Həm Albaniya, həm də Azərbaycan ikitərəfli iqtisadi əməkdaşlığın, o cümlədən energetika sahəsində daha da inkişaf etdirilməsinə maraq göstərir. 2021-ci ildə Albaniya Azərbaycanın 79-cu xarici ticarət tərəfdaşı olub. Həmin ildə ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 4,95 milyon ABŞ dolları, o cümlədən idxalın həcmi 0,66 milyon dollar, ixracın həcmi 4,29 milyon dollar təşkil edib, xarici ticarət saldosu isə müsbət 3,63 milyon dollar olub. 2022-ci ilin yanvar-sentyabr aylarında Albaniya Azərbaycanın 86-cı xarici ticarət tərəfdaşı olub. Ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 1,45 milyon ABŞ dolları, o cümlədən idxalın həcmi 1,14 milyon dollar, ixracın həcmi 0,31 milyon dollar təşkil edib, xarici ticarət saldosu isə mənfi 0,83 milyon dollar olub.

Əlbəttə ki, qarşılıqlı rəsmi səfərlər əməkdaşlığın daha da dərinləşməsinə töhfə verəcək, dövrün çağırışlarına cavab olaraq dövlətlərarası inkişafa müsbət təsirini göstərəcəkdir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# ŞƏT: Yeni iqtisadi güc mərkəzi

ANALİZ

***Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) əsas vəzifəsi Şərqlə Qərb arasında geosiyasi uçurumun qarşısını almaq olmalıdır, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ŞƏT ölkələrinin liderlərinin onlayn sammitində bildirib. İclasın yekunlarından biri də ŞƏT-ə sədrliyin Hindistandan Qazaxıstana keçməsi olub. Tokayev əmin olduğunu bildirib ki, Şanxay Əməkdaşlıq Təşkilatı dünya ictimaiyyətinə davamlı sülhə dair öz baxışını təqdim edə bilər, ona görə də Qazaxıstan sədrliyi çərçivəsində "Ədalətli sülh və anlaşma naminə dünya birliyi haqqında" təşəbbüslə çıxış edəcək. Ölkələr arasında etimad quruculuğu tədbirlərinin gücləndirilməsi, sabitliyin və təhlükəsizliyin qorunması da perspektivdə olan vacib işlərdən sayılır.***



## Şanxay Əməkdaşlıq Təşkilatına sədrlik Qazaxıstana keçdi

### Dünya əhalisinin 45%-i, Yer kürəsinin 15%-i, dünya ÜDM-nin dörddə biri

ŞƏT 2001-ci ildə Şanxayda yaradılmış regional blokdur, təsisçiləri altı dövlət - Rusiya, Qazaxıstan, Çin, Qırğızıstan, Tacikistan və Özbəkistandır. ŞƏT-in yaradılması ilə bağlı bəyannamədə bildirilirdi ki, iştirakçı ölkələr terrorizm, separatizm və ekstremizmə qarşı birgə mübarizə aparmaq niyyətindədirlər. Zaman keçdikcə Şanxay altılığı siyasi, iqtisadi və humanitar əməkdaşlıq prioritetləri olan nüfuzlu çoxprofilli təşkilata çevrildi. Son illər region iqtisadiyyatının inkişafına, ticarət üçün əlverişli şəraitin yaradılmasına, logistika zəncirlərinin təkmilləşdirilməsinə, eləcə də ərzaq və enerji təhlükəsizliyinə xüsusi diqqət yetirilir.

Bu gün ŞƏT Hindistan və Pakistan da daxil olmaqla 8 üzv dövləti, Belarus, İran və Monqolustan da daxil olmaqla 4 müşahidəçi dövləti, həmçinin 13 dialoq tərəfdaşını - Türkiyə, Azərbaycan, Misir, Kamboca, Qətər, Nepal, Səudiyyə Ərəbistanı, Ermənistan, Şri-Lanka, Maldiv adaları, BƏƏ, Küveyt və Myanmanı birləşdirir. Tərəfdaş statusu ŞƏT çərçivəsində bütün müvafiq tədbirlərdə iştirak etməyə imkan verir. Yaxın vaxtlarda bu status Bəhreynə də veriləcək, daha 3 analoji müraciətə və müşahidəçi dövlət statusu almaq üçün 6 müraciətə baxılır. ŞƏT-in əvvəlki sammiti ötən il Səmərqənddə baş tutub.

Hazırda Şanxay Əməkdaşlıq Təşkilatının dövlətləri yer kürəsinin 15% ərazisini tutur, dünya ÜDM-nin dörddə birini və dünya ticarətinin 15%-dən çoxunu təşkil edir. Hazırkı görüşün nəticələrindən biri də İranın təşkilata tam miqyasda qoşulması olacaq.

Qasım-Jomart Tokayevin vurğuladığı kimi, ŞƏT mühüm siyasi təsirə, əhəmiyyətli iqtisadi imkanlara və nəhəng insan resurslarına malik unikal Avrasiya təşkilatına çevrilib. Blok ölkələri davamlı inkişaf məqsədlərinə nail olmaq və müasir çağırışların öhdəsindən gəlmək üçün mühüm töhfə verə bilirlər.

"Qlobal dünya nizamının köklü transformasiyası kontekstində biz geosiyasi gərginliyin görünməmiş artımının, ticarət və sanksiya müharibələrinin intensivləşməsinin və bir çox digər müasir çağırışların şahidi oluruq. Beynəlxalq hüququn əsaslarını və onun mühüm prinsipini - bərabər, birgə, bölünməz, hərtərəfli və davamlı təhlükəsizliyi sarsıtmaq adi hala çevrilir. Bu baxımdan, biz BMT-nin mərkəzi və əlaqələndirici rolu ilə daha nümayəndəli, demokratik və çoxqütblü dünya qurmağa sadiq qalmalıyıq", - Qazaxıstan Prezidenti vurğulayıb.

Sammitdə çıxış edən Qasım-Jomart Tokayev bütün ŞƏT-ə üzv dövlətlər üçün strateji əhəmiyyət kəsb edən prioritetləri təqdim edib.

### ŞƏT prioritetləri

Birinci prioritet alyans məkanında təhlükəsizliyin və sabitliyin təmin edilməsidir. Tokayev vəd edib ki, Qazaxıstanın sədrliyinin diqqət mərkəzində "şərin üç qüvvəsi" - transmilli mütəşəkkil cinayətkarlıq, narkotik ticarəti və kibercinayətkarlıqla mübarizə olacaq. O, 2025-2027-ci illər üçün terrorizm, separatizm və ekstremizmə qarşı mübarizə üzrə əməkdaşlıq proqramının yenilənməsini zəruri hesab edir. Bununla yanaşı, Qazaxıstan eyni dövr üçün ŞƏT-in narkotiklərlə mübarizə strategiyasını qəbul etməyi təklif edir.




Qazaxıstan Prezidenti əmin olduğunu bildirib ki, Əfqanıstandakı böhran xüsusi diqqətə layiqdir və Almatıda BMT-nin Mərkəzi Asiya və Əfqanıstanın davamlı inkişafı üzrə regional mərkəzinin yaradılmasını təklif edir.

İkinci prioritet ticarət-iqtisadi əlaqələrin genişləndirilməsidir. Tokayev açıq-aşkar narazılıqla qeyd edib ki, ŞƏT-in mövcud olduğu 20 ildən artıq bir müddətdə alyans öz himayəsi altında bir dənə də olsun böyük iqtisadi layihə həyata keçirə bilməyib. Səbəb layihə fəaliyyətlərinin maliyyə təminatı mexanizmlərinin olmamasıdır.

Qazaxıstan Prezidenti üçün vəziyyətdən çıxış yolu dünya maliyyə institutlarının ən yaxşı təcrübəsini mənimsəmiş Astana Beynəlxalq Maliyyə Mərkəzinin bazasında birgə investisiya fondunun yaradılmasıdır.

"Bizim fikrimizcə, ŞƏT-in iqtisadi gündəliyi qarşılıqlı ticarətin artırılması üçün əlverişli şəraitin yaradılması, mövcud ticarət maneələrinin aradan qaldırılması və birgə müəssisələrin yaradılması kimi vəzifələrə yönəldilməlidir", - deyə Kasım-Jomart Tokayev bildirib.

Qazaxıstan prezidenti həmçinin ŞƏT-in nəqliyyat infrastrukturunun təkmilləşdirilməsini təklif edir, bunun üçün böyük strateji limanlar və logistika mərkəzlərinin tərəfdaş şəbəkəsinin yaradılması lazımdır. "Bir kəmər, bir yol" meqalayihəsinin və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun həyata keçirilməsində birgə iştirakımız "Şimal-Cənub" və "Şərq-Qərb" dəhlizlərinin böyük potensialının açılması üçün bütün ilkin şərtləri yaradır", - deyə Qazaxıstan Prezidenti bildirib.

Müasir dövrdə enerji əməkdaşlığının gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Qazaxıstan Prezidenti Təşkilatdakı həmkarlarına Astanada keçiriləcək növbəti sammitə qədər BMT-nin Dayanıqlı İnkişaf Gündəliyinə uyğun olacaq ŞƏT-in enerji strategiyasının razılaşdırılmasını təklif edib. "Bu məsələnin müstəsna əhəmiyyətini nəzərə alaraq, biz Qazaxıstanda ŞƏT-in Enerji Forumunu keçirməyə hazırıq", - Tokayev bildirib: "Bu sənayedə əməkdaşlıq perspektivlərinin ətraflı müzakirəsi bizə enerji təhlükəsizliyini və ölkələrimizin tarazlı inkişafını təmin etmək üçün birləşdirilmiş yanaşmalar hazırlamağa imkan verəcək".

### Sivilizasiyaların kəsişməsi

Qazaxıstan Prezidentinin çıxışında digər prioritet rəqəmsal sahədə əməkdaşlıq olub. Müasir dünyada müxtəlif ölkələr və sosial qruplar arasında "rəqəmsal uçurum" problemi aktual olaraq qalır. Bu boşluq aradan qaldırılmalıdır. Tokayev həmkarlarına xatırladıb ki, ötən il Qazaxıstan BMT-nin elektron hökumət reytinqində 28-ci yerdə qərarlaşıb və bu, ŞƏT-ə üzv ölkələr arasında ən yüksək göstəricidir. Respublikada köklü rəqəmsal transformasiya üçün bütün lazımi şərait yaradılıb, dövlət idarəetmə sistemində İT həllər səmərəli şəkildə tətbiq edilir, inkişaf etmiş bank ekosistemləri yaranıb, elektron ticarət geniş vüsət alır. Buna görə də Qazaxıstan ŞƏT məkanında rəqəmsal mərkəzə çevrilməyə hazırdır. Qasım-Jomart Tokayev Astanada blok ölkələrinin Rəqəmsal Forumunun keçirilməsini, onu texnoparklar və innovasiya klasterləri hovuzu komissiyasının ilk iclası ilə birləşdirməyi təklif edib.

Ekologiya sahəsində əməkdaşlıq da az əhəmiyyət kəsb etmir. Qazaxıstan Prezidenti qeyd edib ki, ekoloji gündəliyi irəli sürmədən dayanıqlı iqtisadi artıma nail olmaq və cəmiyyətin rifahını yaxşılaşdırmaq mümkün deyil. Tokayev müasir dünyada təbii fəlakətlərin kəskin artdığını qeyd edib və buna görə də ŞƏT ilə BMT-nin Ətraf Mühit Proqramı arasında tərəfdaşlıq əlaqələrinin qurulmasının zəruriliyini bildirib. Ekologiya sahəsində əməkdaşlıq haqqında saziş hazırlamaq, mühafizə olunan təbiət ərazilərinin və ekoloji turizmin inkişafı proqramı qəbul etmək lazımdır. "Mən bütün bu tədbirlərin bu gün qəbul etdiyimiz Bəyannamədə öz əksini tapmış ŞƏT-in "Ekologiya ili" çərçivəsində keçirilməsini təklif edirəm", – Kasım-Jomart Tokayev təklif edib.

Mədəni-humanitar əlaqələrin, xüsusən də turizmin inkişafı da aktualdır. Tokayev xatırladıb ki, ŞƏT məkanı dünya əhalisinin 45%-ni əhatə edir və potensialı hələ reallaşdırılmamış nəhəng turizm bazarıdır. Qazaxıstan bu istiqamətdə kompleks tədbirlər həyata keçirir - məsələn, ötən il Hindistan, İran və Çin vətəndaşları üçün vizasız rejim tətbiq edilib.

Qazaxıstanın ŞƏT-də sədrliyi dövründə prezident Almatı şəhərinin Şanxay Əməkdaşlıq Təşkilatının turizm və mədəniyyət paytaxtı elan edilməsini təklif edib.

"ŞƏT-in hüdudsuz genişliyi Avrasiya sivilizasiyasının beşiyidir və mədəniyyətlərin birliyini simvolizə edən unikal "Şanxay ruhu" onun əvəzsiz sərvətidir. Qazax torpağı qədim zamanlardan sivilizasiyaların kəsişdiyi, adət-ənənələrin və mədəniyyətlərin qovuşduğu məkan olub. Və bu gün Qazaxıstan ümumi zəngin mənəvi irsin qorunub saxlanmasına və təbliğinə hərtərəfli töhfə verməyə hazırdır", deyə Kasım-Jomart Tokayev bildirib.

Prezident ŞƏT-in "Ruhani ziyarətgahlar" layihəsinə start verilməsini təklif edib. Qazaxıstanda belə bir ziyarətgah dini filosof Xoca Əhməd Yasəvinin Türküstandakı məqbərəsidir. Orta əsr memarlığının bu əzəmətli abidəsinin təqdimatı ŞƏT-in "Qızıl Orda və onun irsi" konfransında keçiriləcək.

Kasım-Jomart Tokayev Qazaxıstanın Şanxay Əməkdaşlıq Təşkilatının inkişafı üçün yeni strategiya hazırladığını və Qazaxıstanın sədrliyi dövründə blokdakı tərəfdaşlara təqdim ediləcəyini açıqlayıb. Strategiya ən perspektivli sahələrdə ŞƏT-in gündəliyini genişləndirmək üçün nəzərdə tutulub. "Biz ədalətli və harmonik dünyanın gələcəyinə öz baxışımıza malik olmalıyıq, qarşılıqlı məsuliyyət və həmrəyliyə əsaslanan inklüziv inkişaf və yaradıcı tərəqqi yolu ilə inamla getməliyik. Sədrlik estafetini öz üzərinə götürərək, təşkilatdakı statusundan asılı olmayaraq, bütün dövlətlərlə ŞƏT məkanında təhlükəsizliyin, sülhün və rifahın daha da möhkəmləndirilməsi naminə fəal və səmərəli fəaliyyəti davam etdirəcəyik", - deyə Kasım-Jomart Tokayev yekunlaşdırıb.

Qeyd edək ki, ötən il Qazaxıstanın ŞƏT ölkələri ilə ticarət dövriyyəsi 60 milyard dolları ötüb. Qazaxıstanın təşəbbüsü ilə ŞƏT ölkələri ərzaq təhlükəsizliyi proqramı və milli valyutalarda qarşılıqlı hesablaşmalar üzrə yol xəritəsi qəbul ediblər. Qazaxıstanlı mütəxəssislər 2030-cu ilə qədər ŞƏT-in Enerji Strategiyasını hazırlayırlar. Ümumilikdə Qazaxıstanın ŞƏT-də sədrliyi dövründə 80-ə yaxın işçi tədbir nəzərdə tutulub.

Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin Sosial Elmlər və Kütləvi Kommunikasiyalar fakültəsinin beynəlxalq əməkdaşlıq üzrə dekan müavini Daria Osinina qeyd edir ki, Qazaxıstan bu gün Mərkəzi Asiyada əsas regional gücdür. "Biz birqütblü dünyadan çoxqütblü dünyaya keçidin şahidiyik. Sual olunur: çoxqütblü dünya nizamının institusional konturunu kim dəstəkləyəcək? ŞƏT-in şansı varmı? Əlbəttə var. Birinci amil coğrafi sərhədlərdir. Bu gün əsas logistika dəhlizləri "Şimal-Cənub" və "Şərq-Qərb" ŞƏT ölkələrinin ərazisindən keçir. Bundan əlavə, ŞƏT ölkələri - Çin, Rusiya, İran və Hindistan de-dollarizasiyanı nəzərdə tutan yeni maliyyə-iqtisadi modelin formalaşmasına təkan verir. ŞƏT-in yeni qlobal dünya düzəninin formalaşmasında əsas təşkilatlardan birinə çevrilmək üçün hər cür imkanı var, sadəcə olaraq qüvvələri birləşdirib koordinasiyalı mövqe inkişaf etdirmək lazımdır", - rusiyalı analitik hesab edir.

**V.VƏLİYEV**

**P.S.** *Məqalədə xarici mənbələrə istinadlar var.*

# “Fransanın hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib”

***Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən “Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli” mövzusunda nazirlər görüşü beynəlxalq KİV-lərin diqqət mərkəzində qalmaqda davam edir. AZƏRTAC xəbər verir ki, müxtəlif media resurslarında yayılmış məqalələrdə Bakı nazirlər görüşünün mühüm mesajların verildiyi, qlobal problemlərə münasibətdə müxtəlif yanaşmaların nümayiş etdirildiyi platformaya çevrildiyi vurğulanıb. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin çıxışında səsləndirdiyi fikirlərə geniş yer verilib.***




## *Dünya mətbuatı Qoşulmama Hərəkatının Bakı nazirlər görüşünü diqqət mərkəzində saxlayır*










ABŞ-ın “www.msn.com” saytında dərc olunan məqalədə bildirilib ki, Prezident İlham Əliyev Qoşulmama Hərəkatına üzv dövlətləri Fransanın yeni müstəmləkəçilik siyasətinə qarşı mübarizə aparmağa çağıraraq deyib: “Dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməlidir”.

Portal dövlətimizin başçısının neokolonializm siyasəti ilə bağlı fikirlərinə də yer verib: “Neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır”.

Vurğulanıb ki, Azərbaycan Prezidenti, həmçinin dünyada islamofobiya və ksenofobiya ilə bağlı narahatlığını ifadə edərək deyib: “Danimarkada, Niderlandda, İsveçdə müqəddəs Quranın yandırılması, təhqir olunması və buna ifadə azadlığı adı altında bəraət qazandırılması tamamilə məsuliyyətsizlikdir, qəbulolunmazdır və bu, pislənilməlidir”.

Diqqətə çatdırılıb ki, o, həmçinin bu yaxınlarda əlcəzair əsilli 17 yaşlı yeniyetmənin fransız polisi tərəfindən öldürülməsini xatırladıb, eyni zamanda, Fransanı başqa ölkələrin daxili işlərinə müdaxilə etdiyini vurğulayıb. Ermənistanla sülh quruculuğu prosesindən də danışan Azərbaycanın dövlət başçısı bunun üçün Qarabağdakı bütün erməni silahlılarının bölgəni tərk etməli olduğunu diqqətə çatdırıb.

Afrika hökumətinin saytında (“gov.za”) bildirilib ki, Bakıda keçirilən nazirlər görüşündə gələn il Uqandanın paytaxtı Kampalada təşkil olunacaq Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının qarşıdan gələn 19-cu Zirvə toplantısına hazırlıq məsələləri müzakirə olunub, eyni zamanda, qlobal məsələlərə dair prinsipial mövqelər nəzərdən keçirilib.

Kubanın “Prensa Latina” agentliyində yayılan xəbərdə Suriya xarici işlər naziri Feysəl Əl-Məkdadın Qoşulmama Hərəkatına üzv ölkələri terrorizmlə mübarizədə səyləri birləşdirməyə çağırdığı vurğulanıb. Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışı ərəb ölkələrinin KİV-ləri tərəfindən də geniş işıqlandırılıb.

Bu ölkənin ”Noticias de Cuba” portalında yayılan “Kuba Qoşulmama Hərəkatında Fələstinlə həmrəyliyi təsdiq edir” məqalədə Qoşulmama Hərəkatının Bakıda keçirilən iclasında bu ölkənin Fələstinin Birləşmiş Millətlər Təşkilatına tamhüquqlu üzv kimi daxil olmasına dəstəyini bir daha təsdiqlədiyi vurğulanıb. Misir, Yəmən, Suriya, BƏƏ, Qətər, İordaniya, Küveyt və Əlcəzairin, habelə Pakistanın qəzet və portallarında oxuculara dövlətimizin başçısının çıxışından əsas məqamlar təqdim olunub.

“Algeriamaintenant” qəzetində dərc olunmuş “Azərbaycan Prezidenti Fransanı sərt tənqid edib” sərlövhəli məqalədə qeyd edilib ki, Əlcəzairin xarici işlər naziri Əhməd Attafın da iştirak etdiyi tədbirdə çıxış edən Prezident İlham Əliyev özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransanın hələ də digər ölkələrin daxili işlərinə qarışdığını, təəssüf ki, Azərbaycanın Qarabağ bölgəsində erməni separatizmini dəstəkləyərək, geosiyasi rəqabət, xarici hərbi mövcudluq və “Orientalizm” müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da eyni mənfur təcrübəni tətbiq etməyə çalışdığını söylədiyi. Yazıda diqqətə çatdırılıb ki, Azərbaycanın dövlət başçısı, həmçinin Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairlini qətlə yetirdiyini, hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümüklərinin müharibə qənimətləri kimi saxlanıldığını bildirib, bunu utancverici və iyrənc hərəkət adlandırıb. O, Fransa prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edib. O, eyni zamanda, bu yaxınlarda Əlcəzair əsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsinin bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlaməti olduğunu vurğulayıb.

Əlcəzairin “EnTV” telekanalının saytında, “Eleane” nəşrində, “Əl Hərir”, “dz.54.dz” informasiya portallarında isə “İlham Əliyev Fransa hökumətinə qarşı ağır ittihamlar irəli sürdü” sərlövhəli məqalədə diqqətə çatdırılıb ki, Qoşulmama Hərəkatına uğurla sədrlik edən Azərbaycanın dövlət başçısı neokolonializm siyasətini sərt tənqid edib, xüsusən Fransanın Avropadan kənarda idarə etdiyi ərazilərin fransız müstəmləkə imperiyasının iyrənc qalıqları olduğunu söyləyib. O vurğulayıb ki, Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir. Azərbaycanın dövlət başçısı, həmçinin Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairlini qətlə yetirdiyini, hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümüklərinin müharibə qənimətləri kimi saxlanıldığını bildirib, bunu utancverici və iyrənc hərəkət adlandırıb. Prezident İlham Əliyev Fransada, xüsusilə də mediada və internetdə müəyyən etnik azlıqlara qarşı davamlı və geniş şəkildə yayılmış irqçi, ayrı-seçkilik salan fikirlər, rəsmi şəxslər və parlamentin iki palatasının üzvləri tərəfindən irqi nifrət xarakterli çıxışların getdikcə artdığını, bu yaxınlarda Əlcəzair əsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsinin bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlaməti olduğunu vurğulayıb. O əlavə edib ki, “bu baxımdan biz BMT-nin polisin atəş açmasını pisləyən və Fransanı “hüquq-mühafizə orqanlarında irqçilik və ayrı-seçkiliyin dərin problemlərini ciddi şəkildə həll etməyə” çağıran bəyanatını dəstəkləyirik”.

Ərəb ölkələrində geniş oxucu auditoriyasına malik olan İordaniyanın “Nəbd” qəzetində dərc olunmuş “İlham Əliyev Parisi sərt tənqid etdi” sərlövhəli məqalədə diqqətə çatdırılıb ki, Azərbaycanın dövlət başçısı Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında Fransanı neokolonializmdə ittiham edib və bildirib ki, əcdadları müstəmləkə siyasətinə məruz qalmış, qul kimi istifadə olunmuş, öldürülmüş, işgəncələr verilmiş və alçaldılmış insanlardan milyonlarla insanın qarşısında üzr istənilməsi yalnız Parisin tarixi günahının etirafı olmayacaq, həm də Fransanın əlcəzairli yeniyetmənin vəhşicəsinə öldürülməsindən sonra qarşılaşdığı dərin siyasi, sosial və humanitar böhranın nəticələrinin aradan qaldırılmasına kömək edəcək. Yazıda vurğulanıb ki, Prezident İlham Əliyev Azərbaycanın neokolonializm meyillərinin artmasından olduqca narahat olduğunu qeyd edib, dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatının keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməli olduğunu deyib. O əlavə edib ki, neokolonializmi hələ də davam etdirən ölkələrdən biri Fransadır. Bu ölkənin Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır.

Küveytin “q-8.press” informasiya portalında dərc edilmiş “Prezident İlham Əliyev İslamın zorakılıq və terrorla eyniləşdirilməsindən narahatlığını ifadə edib” sərlövhəli məqalədə qeyd edilib ki, Azərbaycanın dövlət başçısı Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışında islamofobiya və dini rəmzlərin təhqir olunmasını qətiyyətlə pisləyib. O deyib: “Fikrimizcə, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi bizim gündəliyimizdə öndə duran məsələlər olmalıdır.

***Ardı Səh. 6***

# "Fransanın hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib"




**Əvvəli-Səh-5**

Biz geniş vüsət alan islamofobiya və ksenofobiya hallarından, həmçinin İslamın zorakılıq və terrorla eyniləşdirilməsi cəhdlərindən narahatıq. Danimarkada, Niderlandda, İsveçdə müqəddəs Quranın yandırılması, təhqir olunması və buna ifadə azadlığı adı altında bəraət qazandırılması tamamilə məsuliyyətsizlikdir, qəbulolunmazdır və bu, pislənilməlidir".

Qətərin rəsmi QNA informasiya agentliyinin saytında Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü haqqında xəbər və Prezident İlham Əliyevin bu mötəbər tədbirdə çıxışından əsas məqamlar təqdim edilib.

Bu ölkənin "www.gulf-times.com" saytında dərc olunan məqalədə isə Qətərin xarici işlər üzrə dövlət naziri Sultan bin Saad əl-Murayxinin Qoşulmama Hərəkatının Bakıda keçirilən nazirlər görüşündə iştirak etdiyi, tədbirdə bəzi ölkələrdə "Qurani-Kərim"in nüsxələrinin yandırılması cinayətini kəskin şəkildə pislədiyi, bunu nifrət və islamofobiya hisslərini alovlandıran, qlobal miqyasda sülh və sabitliyə təhlükə yaradan irqçi cinayət hesab etdiyi bildirilib. Qeyd edilib ki, o, üzv ölkələri azadlıq və ədalət dəyərlərinə zidd olan, xalqlar və millətlər arasında ünsiyyətə xələl gətirən belə cinayətlərin təkrarlanmaması üçün kollektiv tədbirlər görməyə çağırıb.

Pakistanın nüfuzlu "İslamabadpost" qəzetində isə Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündəki çıxışının ingilis dilində tam mətni dərc edilib. Prezident İlham Əliyevin çıxışının əsas məqamları Yəmənin "ManbarAden" qəzetində dərc olunmuş "Azərbaycan Prezidenti Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşündə aktual beynəlxalq məsələlərdən bəhs etdi" sərlövhəli materialda da yer alıb.

İordaniyanın rəsmi Petra, BƏƏ-nin WAM informasiya agentlikləri də Bakıda keçirilən Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər görüşü haqqında materiallar dərc edilib.

Moldovanın aparıcı "Point", "Noi", "Timpul" xəbər portalları da Azərbaycan Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının nazirlər görüşündəki çıxışına geniş yer ayırıb. Prezident İlham Əliyevə istinadla qeyd olunub ki, əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhdə maraqlıdırsa, onda onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxmalıdır. Bölgədəki erməni hərbi və yarımhərbi elementləri tərk-silah edilməlidir.

Məqalələrdə, Prezident İlham Əliyevin, həmçinin bu fikirləri oxucuların diqqətinə çatdırılıb: "Münaqişə başa çatdıqdan az sonra Azərbaycan Ermənistanla bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında sülh sazişi imzalamaq üçün beş əsas prinsipini təqdim edib. Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımağa məcbur olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları mövcuddur".

Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşü Bosniya və Herseqovina mediası tərə-




findən də geniş işıqlandırılıb.

"Slobodna Bosna", "Bosna info", "Federalna" və "N1info" kimi informasiya agentliklərinin yaydığı xəbərlərdə Prezident İlham Əliyevin görüşdəki çıxışı zamanı Fransanın neokolonializmi hələ də davam etdirən ölkələrdən biri olduğunu qeyd etdiyi bildirilib. Azərbaycan Prezidentinin Fransada, xüsusilə də mediada müəyyən etnik azlıqlara qarşı davamlı və geniş şəkildə yayılmış irqçi, ayrı-seçkilik salan fikirlərin davam etdiyini bildirdiyi qeyd olunub.

Yazılarda Prezident İlham Əliyevin Fransanı öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməyə çağırdığı vurğulanıb.

Rusiyanın "Kommersant" qəzeti, "News.ru", "Voyennoe obozreniye", "Novıye izvestiya", "Regioni Rossii" nəşrləri, "Vestnik Kavkaza" agentliyi, "Mir" teleşirkəti və bir sıra digər mətbuat orqanları Prezident İlham Əliyevin görüşdəki çıxışı zamanı Fransanın neokolonializm siyasətini tənqid etdiyini bildiriblər. Qeyd olunub ki, Azərbaycan Prezidenti Fransanı ərazi separatizmini dəstəkləməkdə təqsirləndirib, eyni zamanda, Fransada irqçilik meyillərinin, milli azlıqlara qarşı təzyiqlərin artdığını deyib.

Azərbaycan liderinin BMT Təhlükəsizlik Şurası ilə əlaqədar söylədikləri də Rusiya KİV-lərində yer alıb. Oxucuların diqqətinə çatdırılıb ki, Prezident İlham Əliyev Qoşulmama Hərəkatına sədrlik edən ölkələrin də BMT Təhlükəsizlik Şurasında təmsil olunması təklifini irəli sürüb. Həmçinin Azərbaycanın dövlət başçısının Ermənistandan silahlı dəstələrini Qarabağdan çıxarmasını tələb etdiyi vurğulanıb.

Gürcüstanın "Kavkasia.net" portalında rus dilində yayımlanan materialda Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanı bütün qoşunlarını Qarabağdan çıxarmağa çağırdığı yazılır. Azərbaycanın dövlət başçısının çıxışına istinadla yayılan məlumatda deyilir: "Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımağa məcbur edilsə də, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları var. Əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhün əldə olunmasında maraqlıdırsa, o zaman onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsini tamamilə tərk etməlidir. Yerdəki erməni hərbi və hərbiləşdirilmiş birləşmələri tərk-silah edilməlidir".

Geniş oxucu kütləsinə malik olan "apsny.ge" portalında yayımlanan xəbərdə isə Prezident İlham Əliyevin BMT Təhlükəsizlik Şurası haqqında fikirləri yer alıb. Bildirilir ki, hazırda beynəlxalq təşkilatlar, xüsusən də BMT bəşəriyyətin ümidlərini doğrultmur. BMT istər-istəməz ciddi islahatlardan keçməlidir. BMT Təhlükəsizlik Şurası keçmişin yadigarıdır və indiki reallığı əks etdirmir.

"Gaxa.ge" portalında yayımlanan materialda da Azərbaycan Prezidentinin beynəlxalq təşkilatlar, xüsusən də BMT barədə söylədiyi fikirlər yer alıb. Həmin portalda yayımlanan digər materialda isə Prezident İlham Əliyevin Ermənistan və sülh sazişi ilə əlaqədar fikirlərindən bəhs olunur. Dövlətimizin başçısının fikirlərindən gətirilən sitatda deyilir: "Ermənistan həqiqətən də sülhün bərqərar olmasında




maraqlıdırsa, o zaman onun silahlı qüvvələri Qarabağı tərk etməlidir. Ermənistanın Qarabağı Azərbaycanın bir hissəsi kimi tanımalı olmasına baxmayaraq, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində hələ də Ermənistan silahlı qüvvələrinin qalıqları var. Əgər Ermənistan həqiqətən də regionda çoxdan gözlənilən sülhün əldə olunmasında maraqlıdırsa, o zaman onun silahlı qüvvələri Azərbaycanın Qarabağ bölgəsindən tamamilə çıxarılmalıdır. Ermənistanın hərbi və hərbiləşdirilmiş elementləri yerindəcə tərk-silah edilməlidir".

Gürcüstanın "24news.ge" portalında yayımlanan məlumatda isə Prezident İlham Əliyevin Zəngəzur dəhlizi ilə bağlı fikirləri yer alıb. Bildirilir ki, Ermənistan Zəngəzur dəhlizinin açılmasına mane olur. Materialda deyilir: "Ərazilərimiz işğaldan azad edildikdən sonra Azərbaycan indi bir sıra nəhəng çağırışlarla üz-üzədir. Keçmişdə işğal altında olmuş ərazilərdəki dağıntıların miqyasından dəhşətə gəldik. Azərbaycanın şəhər və kəndləri Ermənistan tərəfindən qəsdən dağıdılmış, talan olunmuş, bütün mədəni və dini abidələr, məscidlər təhqir olunmuş, qarət edilmişdir. Ermənistan işğal etdiyi ərazilərdə urbisid, kultursid və ekosid törətmişdir. İşğal altında olmuş ərazilərdəki 67 məsciddən 65-i dağıdılıb, qalanlarından isə donuz və inəklər üçün tövlə kimi istifadə edilib ki, bu da bütün dünya müsəlmanlarına qarşı təhqirdir".

"Qafqazturk.com" saytında gürcü dilində yayımlanan materialda oxuculara Azərbaycan Prezidentinin regiondakı və dünyadakı çağırışlar, eləcə də Azərbaycanın üzləşdiyi problemlər barədə məlumat çatdırılır. Bildirilir ki, Azərbaycan indi sınaq qarşısındadır. Otuz il əvvəl Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizini işğal edib və həm Ermənistanda, həm də Azərbaycanın işğal olunmuş ərazilərində etnik təmizləmə həyata keçirib. Azərbaycan ərazilərini işğaldan azad etdikdən sonra bir çox problemlərlə üzləşib.

Portalın yaydığı daha bir materialda isə oxuculara Zəngəzur dəhlizi ilə bağlı məlumat verilir. Bildirilir ki, Ermənistan, eyni zamanda, Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək dəhlizin açılmasına mane olur ki, bu da təxminən üç il əvvəl imzaladığı kapitulyasiya aktına daxil olan digər öhdəlikdir.

Çinin "China.org" portalında yayımlanan "İranın xarici işlər naziri: Birtərəfli sanksiyalar açıq-aşkar "iqtisadi terrorizmdir" sərlövhəli məqalədə nazir Hüseyn Əmir Abdullahiyanın Azərbaycanın paytaxtı Bakıda keçirilən iclasda "birtərəfli və qeyri-qanuni" sanksiyaların açıq-aşkar "iqtisadi terrorizm" və hədəf alınan ölkələrin insan haqlarının açıq-aşkar pozulması olduğunu bildirdiyi diqqətə çatdırılıb. O, inkişafa nail olmağın hər bir xalqın haqqı olduğunu bildirib və Qoşulmama Hərəkatını dünyada maksimum inkişafın təşviqi üçün beynəlxalq səylərdə daha fəal rol oynamağa çağırıb.

İranın İRNA dövlət informasiya agentliyi, "Mehr" agentliyi, ingilis dilində dərc olunan "Tehran times" qəzeti və digər media qurumları Qoşulmama Hərəkatının Bakıda keçirilən tədbirini diqqətdə saxlayıblar.

"Tehran times" qəzeti yazır ki, tədbirdə İranın xarici işlər nazirinin iştirakı iki qonşu dövlətin münasibətlərinin də yaxınlaşması-




na stimul verə bilər. Qəzetə müsahibə verən İran parlamentinin nümayəndəsi Əbülfəz Amoli bildirib ki, xarici işlər naziri Əmir Abdullahiyanın Bakı səfəri və oradakı görüşləri əlaqələrin bərpasında mühüm rol oynaya bilər. O qeyd edib ki, İran ilə Azərbaycan xalqları oxşar tarixə, dinə və adət-ənənələrə malikdir. İranlı deputat Qoşulmama Hərəkatının Bakıda keçirilən tədbirini yüksək qiymətləndirib və deyib ki, bu görüş Azərbaycana öz diplomatiyasını təşviq etmək üçün imkan yaradıb.



# Milli mənlik şüuruna malik gəncliyə hər zaman ehtiyac var

***Gələcəyimizin təminatçısı milli mənlik şüuruna malik olan gəncliyimizdir. Ona görə ki, gələcəkdə milli maraqlarımızın qorunması məhz həmin gəncliyin, milli mənlik şüuruna malik olan gənclərimizin üzərinə düşür. Bu baxımdan, ən ümdə vəzifə də elə, ilk növbədə, cəmiyyətdə milli mənlik şüuruna malik olan sağlam təfəkkürlü gənclərin yetişdirilməsi hesab olunur.***

Ən ali dəyərlərin, milli maraqların qorunması bizim üçün hər zaman prioritet məsələ olaraq qəbul olunur və məhz öz aktuallığını daim qorumaqda olan ali dəyərlərin mühafizəsinin məsuliyyətini gələcək nəsil, gəncliyimiz daşıyır. Bunun üçün, bu məsuliyyətin dərk edilməsi üçün isə, sözsüz ki, ilk növbədə, gənclərimizdə vətənpərlik hisslərinin aşılanması gərəkir. Çünki məhz vətənə məhəbbət hissi gənclərimizin həmin o milli maraqları qoruması üçün əsas şərt hesab olunur. Vətənini sevən, vətəninə məhəbbət bəsləyən gənclik yalnız bütün ali dəyərlərin müdafiəçisi ola bilər, suverenliyin, ərazi bütövlüyünün, xalqımıza məxsus olan maddi və mənəvi sərvətlərin keşiyində dayanar, qoruyucusuna çevrilər. Biz bunun, bu həqiqətin 44 günlük müharibə dönəmində əyani şəkildə şahidi olduq və bir daha əmin olduq ki, müasir gəncliyimiz milli mənlik şüuruna malik olan sağlam təfəkkürlü gənclikdir və həmin gəncliklə gələcəyə ümid etməyə dəyər. Çünki həmin gənclik xalqımıza, bizə məxsus olan dəyərlər uğrunda canından, qanından keçməyə hazır olduğunu bir daha təsdiq etdi.

Hər bir millətin, hər bir xalqın təşəkkül tapmasında, onun suverenliyinin, dəyərlərinin qorumasında milli mənlik şüurunun, vətənpərlik hisslərinin, milli-mənəvi dəyərlərə bağlılığının rolu, yeri böyükdür və danılmazdır. Gənc nəslin öz soyuna, kökünə bağlılığı, maddi və mənəvi dəyərlərinə sayqı ilə yanaşması, onların keşiyində dayanması isə bu mənada xüsusi əhəmiyyət kəsb edir. Çünki öz kökünə, öz soyuna bağlı olan gənclik milli maraqlar uğrunda mübarizə aparar, xalqımıza məxsus dəyərlərə sahib çıxar. Sözsüz ki, bunun üçün də, ilk növbədə, gəncliyin bütün sahələrdə hərtərəfli inkişafı, əsasən də, təhsili olması, mədəni dəyərləri qavraması, tariximizi, mədəniyyətimizi dərindən bilməsi, öyrənməsi, adət-ənənələrimizi belə unutmaması gərəkir. Elə bu məsələlərin dövlətimiz, dövlət başçımız tərəfindən diqqətdə saxlanılması da bu baxımdan heç də əbəs yerə, yaxud təsadüfi deyil. Bilikli, savadlı, bütün dünyada gedən proseslərə bələd olan, tarixi həqiqətləri bilən, gözəl təhsil alan, öz biliyi və savadı ilə Azərbaycanın gələcək inkişafına töhfə verəcək gənc nəslin, vətənpərvər gənc nəslin yetişməsi ölkəmizdə ən aktual məsələ hesab olunur.

Xalqımızın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin ilk yaratdığı nazirliyin Gənclər və İdman Nazirliyi olması heç də əbəs yerə deyildi, gənclərin hərtərəfli yetişməsinə hesablanmışdı. Bu, həm də onu deməyə əsas verir ki, Ulu Öndər gənclər siyasətinə, Azərbaycan gəncliyinin sağlam yetişməsinə böyük önəm verib. Bu baxımdan da cəsarətlə deyə bilərik ki, Azərbaycan gəncliyinin savadlı, dünyagörüşlü, vətənpərvər, qəhrəman, milli dəyərlərə malik, milli mənlik şüuruna sahib yetişməsi, inkişaf etməsi məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır və gənclərimiz də bunu çox yaxşı başa düşürlər, Ulu Öndərin xatirəsini də hamı kimi çox əziz tuturlar. Hazırda Ulu Öndərimizin digər ideyaları kimi, gənclər siyasəti də Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, sağlam, vətənvərvər, milli mənlik şüuruna malik gəncliyin yetişməsi üçün bütün mümkün işlər görülür. Təbii ki, görülən işlərin məntiqi nəticəsini də xalqımız, cəmiyyətimiz hər addımda müşahidə edir və 44 günlük müharibə dönəmində bunu hamımız daha yaxından müşahidə etmiş olduq.

Doğrudur, bu gün fəxr ediləsi sağlam təfəkkürlü, milli mənlik şüuruna malik gəncliyiniz var. Onlarla qurur duymağa haqqımız çatır, çünki həmin gəncliyin xalqımıza məxsus dəyərlərin, ərazi bütövlüyümüzün qorunmasında, əsrin üçdə birinə yaxın müddət ərzində ermənilər tərəfindən işğal altında saxlanılan torpaqlarımızın işğaldan azad edilməsində, xalqımıza məxsus olanın bizə qaytarılmasında necə mübarizə apardığının, bu yolda canından, qanından keçməyə hazır olduğunun şahidi olmuşuq. Milli maraqlarımızın müdafiəsi, dəyərlərimizə sahib çıxılması uğrunda neçə-neçə gəncimizin şəhid olması, qazilərimizin fədakarlığı yaddaşlardan silinən deyil. Əsləlxüsus şəhidlərimizin əziz xatirəsi əbədi olaraq yaddaşlara həkk olunub və onlar unudulmazdırlar. Lakin təkcə bu gün deyil, hər zaman belə gəncliyin, milli mənlik şüuruna malik, vətənpərvərlik hisslərinə sahib gənclərin olması gərəkir. Bundan sonra da xalqımıza məxsus olan dəyərlərə sahib çıxacaq gəncliyin olması olduqca vacibdir və bu baxımdan sağlam təfəkkürlü, milli mənlik şüuruna malik, vətənini gözbəbəyi kimi qorumağa hazır olan vətənpərvər gəncliyə hər zaman ehtiyac var.

Separatçı ermənilərin yeni təxribatlarına cavab olaraq, 2020-ci ilin sentyabr ayında əks hücum əməliyyatlarının başlaması zamanı gənclərimizin necə böyük həvəslə, hansı ruh yüksəkliyi ilə cəbhə xəttinə yollanması, döyüşlərə mərdimərdanə qatılması, vətən torpağının hər qarışı uğrunda canını, qanını əsirgəməməsi gənclərimizdə milli mənlik şüurunun, vətən məhəbbətinin, vətəndaşlıq hissinin hansı səviyyədə olduğunu bizə göstərdi. Biz məhz həmin gəncliyin vətənpərvərliyi, onların sıralandıqları ordumuzun şücaəti, qəhrəmanlığı, xalqımızın birliyi, həmrəyliyi, Ali Baş Komandanın, Azərbaycan Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi, qətiyyəti, uzaqgörənliyi, biliyi, bacarığı sayəsində ən qısa zamanda düşmən üzərində qələbəmizi qazandıq. Ən qısa zamanda bizə məxsus olanı, torpaqlarımızı, işğal altında olan ərazilərimizi geri qaytardıq, maddi-mədəni irsimizimə sahib çıxdıq. Bununla qurur duyuruq, amma onu də yaxşı bilirik və məsuliyyətini də dərk edirik ki, təkcə geri qaytarmaqla bitmir, həmin dəyərlərin qorunması gərəkir. Deməli, hələ bundan sonra da gəncliyimizin üzərinə böyük məsuliyyət düşür və bu baxımdan sağlam təfəkkürlü, vətənpərvər, milli mənlik şüuruna malik gənclər hər zaman olmalıdır ki, gələcəyimizin təminatı barədə əminliyimiz olsun.

Qələbə qazansaq da, ən qısa zamanda Zəfər çalsaq da yaxşı bilirik ki, biz bizə məxsus olanlara göz dikən, onları özününküləşdirmək niyyətindən əl çəkməyən bir qonşu dövlətlə yanaşıyıq və onların istənilən zaman yenə də dəyərlərimizə sahib çıxmaq həvəsinə düşəcəkləri mümkün haldır və təkzib də edilə bilməz. Deməli, öz dəyərlərimizi bundan sonra qorumaq daha aktual, prioritet məsələ olaraq qalmaqdadır. Bu isə o deməkdir ki, sağlam təfəkkürlü, vətənpərər, vətənini sevən, onun hər bir qarışısını canından, qanından üstün tutan, maddi-mənəvi irsinə, dəyərlərinə sahib çıxan, tarixini yaşadan, suverenliyinin, müstəqilliyinin keşiyində duran gəncliyə, milli mənlik şüuruna malik gəncliyə hər zaman ehtiyac var.

***İnam Hacıyev***

# Bakı toplantısı:

## TUTARLI FAKTLAR, ARQUMENTLƏR, TÖVSİYƏLƏR...

TƏHLİL

***Qoşulmama Hərəkatının Bakıda keçirilən Əlaqələndirmə Bürosunun iclasında Azərbaycan Prezidenti cənab İlham Əliyevin tutarlı arqumentlər və dəyərli tövsiyələrlə zəngin çıxışı yaddaşlara həkk olundu, çünki bu çıxış qanunsuzluğa ədalətsizliyə, haqsızlığa, ayrı-seçkiliyə qarşı kəskinliyi ilə qətiyyən diqqətdən yayına bilməzdi. Qeyd edək ki, ölkə rəhbərinin çıxışının ən kəskin hissəsi isə Fransa mövzusu və onun ayrı-seçkilik siyasəti ilə bağlı səsləndirdiyi fikirlər hesab olunur və bu dəfə də dünya ictimaiyyəti Azərbaycan Prezidentinin haqsızlığa, ədalətsizliyə qarşı necə bir siyasi iradəyə, qətiyyətə sahib olduğuna bir daha əmin oldu. Əslində, görünən odur ki, məhz belə bir əminlik öncədən də var idi və Bakıda keçirilən Qoşulmama Hərəkatının tədbirlərinin Parisdə böyük gərginliklə gözlənilməsi də, izlənilməsi də bu baxımdan təsadüfi deyildi.***

Azərbaycan Prezidenti hər zaman haqsızlığa, ədalətsizliyə qarşı olduğunu cəsarətlə bəyan etməklə yanaşı, həm də çox dəyərli çağırışlar da edib. "Avropadan kənarda Fransanın idarə etdiyi ərazilər Fransa müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır", deyə bu ilin mart ayında Təmas Qrupunun Bakıda keçirilən sammitində də cənab Prezident İlham Əliyev onların törətdikləri cinayətlərə görə cavabdeh olduqlarını xatırlatmışdı və müvafiq çağırışlar da etmişdi. Bu isə onu göstərir ki, ölkə rəhbərimizin belə çağırışları, Fransa hökumətinə bu rakursda



verdiyi mesaj birinci dəfə də deyildi. Xatırladaq ki, çari il, 2023-cü il martın əvvəlində Təmas Qrupunun paytaxtımızda keçirilən sammitində cənab İlham Əliyev bu məsələ ilə bağlı çıxış edərək, Parisi müstəmləkəçilik cinayətlərinə görə üzr istəməyə çağırmışdı. Ölkə rəhbərimiz tutarlı arqumentlər və dəyərli tövsiyyələrlə müvafiq çağırışlar edir, ayrı-seçkiliyə, haqsızlığa, ədalətsizliyə qarşı çıxışlar edir, cinayətlərə son qoyulmasını bərədə bəyan edir, amma rəsmi Paris öz ənənəsini yaddan çıxarmaq belə niyyətində görünmür.

Fransada baş verən son hadisələr də təsdiq edir ki, Paris nəticə çıxarmır, keçmişin səhvlərini düzəltməyə tələsmir. Davamlı şəkildə həmin səhvlərin təkrarlanması bu fikri əsaslı şəkildə təsdiq edir. Təsdiq edir ki, Fransa deyəsən heç bu barədə, yeni səhvlərin təkrarlanmaması barədə düşünmür də. Sözsüz ki, həmin o təkrarlanan səhvlər Rəsmi Parisə ünvanlanan yeni tənqidlər üçün əsaslı zəmin yaradır. Məhz elə bu fonda da Fransa kimi bir Avropa ölkəsi tənqid edilir, eyni zamanda bu ölkəyə cinayət əməllərindən əl çəkmələri, ayrı-seçkiliyi aradan qaldırmaları üçün tövsiyələr verilir. Hətta ölkə rəhbərimiz cəsarətlə bəyan edib ki, rəsmi Paris məhz Fransanın nəinki bu günlərdə, eləcə də bu vaxta qədər törətdiyi cinayətlərə görə üzr istəməlidir. Lakin belə bir tövsiyə görünür, Avropanın düz ortasında yerləşən bir ölkə rəhbərliyi tərəfindən dərk edilməyib və Emmanuel Makron Fransaya edilən ilk müraciətə, tövsiyələrə reaksiya verməmdiyi səbəbindən ölkəmizin Prezidenti bu dəfə onlara Hollandiyanı misal çəkib. "Ölkəsinin müstəmləkə keçmişinə və qul ticarətində iştirakına görə Hollandiya kralı bir neçə gün əvvəl rəsmi olaraq üzr istədi. Biz onun fransalı həmkarını da bunu etməyə təşviq edirik. Gec olmağı heç olmamaqdan yaxşıdır", deyə xatırladan Azərbaycan Prezidenti bir Avropa ölkəsini cinayətlərə, ayrı-seçkiliyə, ədalətsizliyə son qoymağa çağırıb. Sözsüz ki, bu çağırışlardan nəticə çıxarıb-çıxarmayacağı rəsmi Parisin işidir. Hər halda, bu vaxta qədər nəticə çıxarılmadığının acı nəticələri göz önündədir və daha ağır nəticələrə apardığı da təkzib edilə bilməz, çünki həmin o ayrı-seçkilik, ədalətsizlik, haqsızlıq məhz Fransanı bugünkü vəziyyətə salıb, qarışıqlıq halına gətirib.

Görəsən, bu dəfə də olsa Fransa prezidenti, həmin ölkənin hakimiyyəti bu məsləhətlərdən, tövsiyələrdən bir nəticə çıxara biləcəkmi? Sözsüz ki, Əgər Makron və onun komandası heç olmasa az da olsa sağlam düşüncəyə sahib olsaydı, bunu gözləməyə dəyərdi. Ən azından mövcud böhranlı vəziyyətin qarşısını almaq üçün sağlam düşüncə sahibi məhz Bakı toplantısında ölkə rəhbərimizin səsləndirdiyi dəyərli tövsiyələrdən müvafiq nəticə çıxaramalıdır. "Sələflərinin müstəmləkələşdirdiyi, qul kimi istifadə etdiyi, öldürdüyü, işgəncələrə məruz qoyduğu və alçaltdığı milyonlarla insandan üzr istənilməsi təkcə Fransanın tarixi günahının etirafı olmayacaq, həm də dərin sosial və siyasi böhranın nəticələrini aradan qaldırmağa kömək edəcək", deyə Azərbaycan Prezidenti cənab İlham Əliyev vurğulayıb və sözsüz ki, bunlardan nəticə çıxarmaq kimi bir məsuliyyət Fransa hökumətinin, şəxsən prezident Makronun üzərinə düşür. Çünki mövcud böhranın aradan qaldırılması məsuliyyəti də birbaşa olaraq onun və hakimiyyət komandasının üzərindədir.

Həqiqətən də, əgər Makron ölkə rəhbərimizin tövsiyələrinə qulaq asaraq, eyni ilə Hollandiya kralı kimi cəsarətli addım atsa, üzr istəsə, əlcəzairli yeniyetmənin vəhşicəsinə öldürülməsinə görə də doğru, ədalətli qərar versə və bundan sonra da ayrı-seçkiliyə son qoysa, fransızlar və miqrantlar arasında ayrı-seçkiliyin olmadığına inamsızlığı aradan qaldıra, nəticədə də böhranlı siyasi vəziyyətin öhdəsindən gələ bilər. Üzr istəmək keçmişin günahına görə yaranan qəzəb hissini soyuda, səngidə bilər və unutmaq lazım deyil ki, miqrantlar fransız cəmiyyətinin, eləcə də mədəniyyətinin bir hissəsidir və onlar nəzərə alınmalı, onlara qarşı ayrı-seçkiliyə son qoyulmalıdır ki, mövcud problemlərinin öhdəsindən gələ bilsinlər. Əgər üzr istənilməzsə, miqrantlar özlərini hər zaman ikinci dərəcəli insanlar kimi hiss edəcəklər və bu da nəticə etibarı ilə onların fransız cəmiyyətinə inteqrasiya etmək istəməməsinə gətirib çıxaracaq. Bax elə bu durum, bu vəziyyət məhz qarşılıqlı inamsızlıq yaradır, hansı ki, Fransada hazırda baş verənlər də bundan qaynaqlanır. Azərbaycan Prezidentinin tövsiyələri də özündənrazı Fransa elitasına bu baxımdan ünvanlanıb və problemin mənşəyinin diqqətə çatdırılması ilə qətiyyətli doğru addım atmaq çağırışı edilib.




Fransanın tarixən törətdiyi cinayətləri təkzib etmək mümkün deyil və bunu onlar özləri də edə bilməzlər. Cənab İlham Əliyevin də xatırladığı kimi, Fransanın müstəmləkəçilik siyasətinin ən ağır cinayətlərindən biri də ərəb-əlcəzairlilərin soyqırımı olub, hansı ki, bunun nəticəsində bir milyon yarıma yaxın insan həyatını itirib. Əsassız və haqsız olaraq, Azərbaycanı ermənilərə qarşı mücərrəd, sübuta yetirilməmiş cinayətlərdə ittiham etməyə çalışan Fransa törətdiyi insanlığa sığmayan soyqırımlar barədə konkret faktlar, tutarlı arqumentlər qarşısında özü acizdir və fransızlar bunu heç təkzib etməyə də çalışmırlar, yaxud təkzib etmək üçün cəhd belə etmirlər. Necə edə bilərlər axı, fakt ortadadır. Əlcəzairli öldürülən azadlıq mücahidlərinin kəllələrini hələ də muzeylərində saxlamaları isə hərdən elə təəssürat yaradır ki, elə bil, öz vəhşilikləri, vandallıqlarına görə onlar hətta fəxr edirlər. O zaman Fransa hansı üzlə, onun prezidenti hansı mənəvi haqla sübuta yetirilməyən erməni iddialarına görə Azərbaycanı cinayətdə ittiham etməyə qalxır? Öz suveren ərazilərimizi, özü də əsrin üçdə birinə yaxın müddət ərzində ermənilər tərəfindən işğal altında saxlanılan, dağıdılıb viran qoyulan torpaqlarımızı geri, öz sahibinə, özümüzə qaytarmağımıza görəmi ittiham edir? Viran qoyulmuş əraziləri geri qaytardıqdan sonra onları Azərbaycanın abadlaşdırmasını yoxsa görmür? Bəlkə sülh, stabillik, sabitlik istiqamətində ölkəmizin atdığı addımlarından, təkliflərindən xəbərsizdir bu Avropa ölkəsi? Bütün bunlar özünü, insanlar və xalqlar üçün bərabər hüquqlar ideologiyasının beşiyi kimi göstərmək istəyindən, niyyətindən başqa cür görünmür və çox absurd, iyrənc bir mənzərə yaradır. Əslində, ölkə rəhbərimiz tərəfindən səsləndirilən fikirlər, təkzibedilməz faktlar, tutarlı arqumentlər səbəbsiz, yaxud təsadüfi deyildi, Fransaya, onun hakimiyyətinə xatırladılan incə məqamlar idi. Bunu nəinki fransızlar, onların prezidenti, hətta dünya ictimaiyyəti də çox yaxşı başa düşmüş oldu və gec də olsa ədalətli, haqlı davranmağın, ayrı-seçkiliyə son qoymağın, kobud şəkildə desək, ədəb-ərkan göstərməyin zamanı olduğu rəsmi Paris qarşısında dilemma şəklində qoyulduğunu hər kəs çox gözəl anlamış oldu.

Komor adalarının Mayotte adasındakı suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının və Fransanın xaricdəki icma və ərazilərinin digər xalqlarının hüquqlarına Fransanın hörmətlə yanaşmalı olduğunu qeyd edən cənab Prezident İlham Əliyev nəinki keçmişə üz tutdu, hətta bu günə aid faktları da bununla diqqətə çatdırdı və müasir dünyada müstəmləkəçilik, təcavüz etmək kimi təzahürləri qınadı. Doğrudur, Avropa ölkəsində baş verən mövcud hadisələr, Fransa reallığı, bu ölkə hakimiyyətinin ədalətsiz yanaşmaları siyasi elitanın şüur paradiqmasının dəyişəcəyinə ümid yaratmır. Rəsmi Parisin təcavüzkarla təcavüzə məruz qalan arasında fərq qoymaması da bu fonda diqqəti cəlb edir və bu ölkə tərəfindən təcavüzkarın dəstəklənməsi, heç də özünü insanlar və xalqlar üçün bərabər hüquqlar ideologiyasının beşiyi kimi göstərmək istəyinə uyğun gəlmir. Cənab Prezident eyni zamanda yaxın tarixə müraciət edərək, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi, dinc azərbaycanlı sakinlərə, şəhərlərə, mədəni irs abidələrinə qarşı törətdiyi cinayətləri bir daha təqdim etməsi də bu baxımdan təsadüfi sayıla bilməz. Ermənistanın Azərbaycana qarşı həmçinin həyata keçirdiyi ekoloji və mina terroru, öz silahlı qüvvələrinin qalıqlarını Azərbaycan ərazilərindən çıxarmaqdan yayınaraq açıq-aşkar şəkildə qeyri-konstruktiv və hətta təcavüzkar mövqe tutduğu barədə diqqətə çatdırılması da əbəs yerə deyildi və bir xatırlatma kimi diqqətdən yayınmadı. Bütün bunlar təcavüzkarın dəstəklənməsinin növbəti ədalətsizlik olduğu barədə bir ehyam idi və bir növ Fransaya bunu etməmək tövsiyəsi də sayıla bilər. Yəni, Qoşulmama Hərəkatı kontekstində Ermənistanın təcavüzünün qeyd edilməsi heç də təsadüfi deyildi və erməni təcavüzkar layihəsinin dünya gücələrinin Cənubi Qafqaz üzərində post-müstəmləkəçilik nəzarəti aləti olduğunun diqqətə çatdırılması tam yerinə düşmüş oldu. Bu tutarlı faktlar, arqumentlər ədalətsizliyə, ayrı-seçkiliyə yol verən Fransa üçün haqq və hüquqların qorunması, eləcə də təcavüzün, təcavüzkarın yanında olmamaq üçün daha bir tövsiyə sayılır.

***İnam Hacıyev***

# Söz əməlin kölgəsidir!



*İLHAM ƏLİYEV: "Keçmiş məcburi köçkünlərlə görüşlərdə demişdim ki, siz öz torpaqlarınıza qayıdacaqsınız, belə də oldu"*

***Artıq bu gün - 33 ildən sonra dövlətimiz və xalqımız ən şərəfli günlərini yaşayır, tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı artıq bərpa olunub. Bütün bu uğurlar Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir.***





ANALİZ

Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları da prezidentlik fəaliyyətinin 20 ili ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Və bu gün görülən işlər, hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur.

### "KEÇMİŞ MƏCBURİ KÖÇKÜNLƏRLƏ GÖRÜŞLƏRDƏ DEMİŞDİM Kİ, SİZ ÖZ TORPAQLARINIZA QAYIDACAQSINIZ, BELƏ DƏ OLDU"

İunun 23-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı keçmiş məcburi köçkünlərin öz dədə-baba torpaqlarına qaytarıldığını vurğulayaraq bildirmişdir: "Onlarla görüşlər əsnasında mən demişdim ki, siz öz torpaqlarınıza qayıdacaqsınız, belə də oldu. Demişdim, biz heç vaxt imkan verməmərik ki, ərazimizdə ikinci erməni dövləti yaradılsın, belə də oldu. Biz demişdik ki, düşməni torpaqlarımızdan qovacağıq, düşməni torpaqlarımızdan qovduq, Azərbaycan Bayrağını bizim tarixi torpaqlarımızda qaldırdıq. Yəni, bu, böyük tarixi nailiyyətdir. Bu şanlı tarix Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır".

Çünki .

### "BU GÜN GÜC DƏ BİZİM TƏRƏFİMİZDƏDİR, ZAMAN DA BİZİM MÖVQEYİMİZİ GÜCLƏNDİRİR, BEYNƏLXALQ HÜQUQ DA"

İyunun 23-də Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində Ermənistana növbəti mesajını verdi və bildirdi ki, son iki il yarım ərzində Ordumuzu böyük dərəcədə gücləndirilib, Ermənistanla sərhəd boyunca əlverişli mövqelərə sahibik və o mövqelərdə möhkəmlənirik, strateji yüksəkliklərdə olmağımız bizə strateji üstünlük təmin edir və biz heç vaxt tələskənliyə yol verməmişik, buna ehtiyac yoxdur. Bu gün güc də bizim tərəfimizdədir, zaman da bizim mövqeyimizi gücləndirir, beynəlxalq hüquq da. Dünya ictimaiyyəti artıq birmənalı şəkildə Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz gözləyə bilərik. Yenə də deyirəm, biz tələsmirik. Bu gün biz azad edilmiş torpaqlarda geniş quruculuq işləri ilə məşğuluq. Biz keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytarırıq: "Əgər bütün bu amilləri Ermənistan və onun arxasında dayanan xarici qohumları başa düşmürlərsə, onda günah onların boynundadır".

Prezident İlham Əliyev bu gün Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq işlərinin aparıldığını və tezliklə doğma yurdlarından köçkün düşən soydaşlarımızın öz dədə-baba torpaqlarına qayıdacaqlarını deyib: "Keçmiş məcburi köçkünlər öz dədə-baba torpaqlarına qaytarılır. Onlarla görüşlər əsnasında mən demişdim ki, siz öz torpaqlarınıza qayıdacaqsınız, belə də oldu. Demişdim, biz heç vaxt imkan verməmərik ki, ərazimizdə ikinci erməni dövləti yaradılsın, belə də oldu. Biz demişdik ki, düşməni torpaqlarımızdan qovacağıq, düşməni torpaqlarımızdan qovduq, Azərbaycan Bayrağını bizim tarixi torpaqlarımızda qaldırdıq. Yəni, bu, böyük tarixi nailiyyətdir. Bu şanlı tarix Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır".

Çünki .

### BU TORPAQLARIN SAHİBLƏRİ BİZİK - AZƏRBAYCAN XALQIDIR

Bəli, bu torpaqların sahibi Azərbaycan xalqı olduğu üçün də haqqı, ədaləti, ərazi bütövlüyümüzü bərpa edərək öz torpaqlarımıza sahib olduq. 1992-ci il may ayının 8-də erməni təcavüzkarları tərəfindən Şuşa işğal olunsa da 2020-ci il noyabrın 8-də - 28 ildən sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu gün Müzəffər, Sarsılmaz, Şanlı Ordumuz, rəşadətli əsgər və zabitlərimizin gücü ilə 28 il həsrətində olduğumuz, Azərbaycanın ürəyi, mirvarisi, o cümlədən bütün Qafqazın mədəniyyət beşiyi olan Şuşa şəhərini düşmən işğalından azad etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 8-də Şəhidlər Xiyabanında xalqa etdiyi müraciəti isə bütün xalqımızın Qarabağ həsrətinə məlhəm oldu. Ali Baş Komandanın tarixi müraciətindən: "Dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində – 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam".

Bəli, bu gün .

### QARŞIMIZDA QARABAĞIN VƏ ŞƏRQİ ZƏNGƏZURUN YENİDƏN QURULMASI KİMİ BÖYÜK ÇAĞIRIŞ DAYANIR

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışında bildirib ki, bizim uğurlu iqtisadi siyasətimizi, ölkəmizin artan gəlirlərini nəzərə alaraq, bu yaxınlarda dövlət büdcəsinə əlavələr edildiyini və bu ilin dövlət büdcəsi müstəqil Azərbaycan tarixində rekord büdcə olduğunu söyləyib və bildirib ki, işğaldan azad olunan torpaqlarımızda bərpa quruculuq işlərinin aparılması böyük vəsait tələb edir: "Ancaq buna baxmayaraq, biz əlavə vəsaiti əldə edən kimi büdcənin artırılmasına yeni böyük məbləğdə vəsait ayırdıq və burada iki əsas istiqamət müəyyən edilmişdir - birincisi, Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi, ikincisi, hərbi potensialımızın gücləndirilməsi. Yəni, təkcə bu fakt özlüyündə onu göstərir ki, bizim üçün bu gün prioritet məsələlərdən biri ordu quruculuğu, digəri isə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir".

### HEYDƏR ƏLİYEV FONDUNUN HƏYATA KEÇİRDİYİ HUMANİST XARAKTERLİ UĞURLU LAYİHƏLƏR

Məcburi köçkünlərin məişət problemlərinin həlli işində dövlətlə yanaşı, artıq özəl sektor da yaxından iştirak edir. "Qobu Park" köçkün şəhərciyinin açılışı bunun bariz nümunəsi oldu. Xatırladaq ki, burada mindən çox ailə üçün yeni binalar, evlər tikilib, bütün infrastruktur yaradılıb. Ən əsası isə həmin layihə özəl sektor tərəfindən təmin edilib, tikilib və maliyyələşdirilib. Həmçinin, onu da qeyd etmək lazımdır ki, qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir. 2017-2018-ci illərdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə 1481 mənzil, Qaradağ rayonu ərazisindəki "Qobu Park" yaşayış kompleksinin yanında 2-ci yaşayış kompleksində 1300, Dövlət Proqramının icrası üzrə Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində 810, Pirallahı rayonunda 306, Şirvan şəhərində 685, Beyləqan rayonunda 146 ailəlik qəsəbə və yaşayış kompleksləridir.

Bəli, bu gün artıq Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevirilməsinə hədəflənmişdir. Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib və Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Çünki sözü imzası qədər qüvvətli olan liderdir! Və qaçqın və məcburi köçkünlər əmindirlər ki, onlar Cənab Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət sayəsində doğma yurdlarına qayıdmaqdadır.

Bir sözlə, dövlət başçımızın dediyi kimi: "Onlarla görüşlər əsnasında mən demişdim ki, siz öz torpaqlarınıza qayıdacaqsınız, belə də oldu. Demişdim, biz heç vaxt imkan verməmərik ki, ərazimizdə ikinci erməni dövləti yaradılsın, belə də oldu. Biz demişdik ki, düşməni torpaqlarımızdan qovacağıq, düşməni torpaqlarımızdan qovduq, Azərbaycan Bayrağını bizim tarixi torpaqlarımızda qaldırdıq. Yəni, bu, böyük tarixi nailiyyətdir. Bu şanlı tarix Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır".

**RƏFİQƏ KAMALQIZI**

# Superhəyasızlar: Hayların bu "keyfiyyət"i heç bir millətdə yoxdur

Xəbər verildiyi kimi, bir neçə gün əvvəl Qarabağdakı rus sülhməramlılarının nəzarət etdiyi ərazidə, yəni Xankəndidə guya "hakimiyyətini" elan edən qondarma və oyuncaq rejimin "prezidenti" Araik Arutyunyanın Ermənistan mətbuatında Rusiya Prezidenti Vladimir Putinə kömək üçün yalvarış məktubu yazdığı barədə məlumat yayılıb. Ancaq bununla bağlı bəzi ziddiyyətli informasiyalar da gəlir. Belə ki, qondarma qurumun "prezidenti"nin "mətbuat katibi" Lusine Avanesyan həmin məlumatla əlaqədar "heç bir şərh yoxdur" cümləsini işlədib. O, sanki bununla mətbuata tapmaca satıb. Necə yəni, məktub göndərilibsə şərh niyə yoxdur?



Ermənistan mediasının nümayəndələri mətbuat katibindən "məktubun həqiqətən də Vladimir Putinə ünvanlanıb-ünvanlanmadığını soruşurlar. Müraciət edənlər əgər belə bir məktub göndərilibsə, Rusiya Federasiyasının Prezidentinin cavabının necə olduğunu" öyrənmək istəyirlər. Bütün suallara sükutla müəmmalı cavab verilib. Maraqlananların təkidlə cavab almaq istəmələrinin səbəbi var.

Xatırladaq ki, qondarma qurumun yüksək vəzifəli şəxslərindən biri-"antiböhran şurası"nın sədri Tiqran Petrosyan bir müddət əvvəl bildirmişdi ki, separatçı rejimin "rəhbəri" Araik Arutyunyan Vladimir Putinə bölgədəki vəziyyətlə bağlı məktub göndərərək ondan kömək istəyib. Təbii ki, suda boğulan gümanı gəldiyi hər şeydən yapışmağa çalışar. Ancaq burada təəccüb doğuran bir çox məqamlar var. Artıq çoxdan bəllidir ki, Araik qarın agrısına düşən kimi illac üçün Moskvaya qaçır. Moskvaya ha, İrəvana yox. Moskvadan Nikol Paşinyanın yerinə hazırlanıb göndərilmiş milyarder Ruben Vardanyana qucaq açır, "İrəvana doğru start götürmək üçün" ona



şərait yaradır. Bu da o anlama gəlir ki, Rusiyanı Ermənistandan çıxarmağa çalışan Nikol Paşinyanla Araik Arutyunyan eyni istiqamətə getmirlər, yolları əksdir. Bu da məlumdur ki, onların hər birinin xaricdəki ağaları da itləpişik kimi davranırlar. Ancaq bilinmir ki, onların hansı itdir, hansı pişik.

Maraqlı və təəccüblü odur ki, anti-Rusiya təbliğatına şəxsən özü "dirijorluq" edən Ermənistanın baş naziri Nikol Paşinyan Yevgeni Priqojinin silahlı çevrilişə cəhdi günlərində Prezident Putinə dəstək verməyə hazır olduğunu bildirdi. Yəqin Nikol Vovayeviçin bu vədinə bişmiş toyuqlar da şaqqanaq çəkib güldü. O boyda mənsəb sahibi unudub ki, hazırda onun sərhədlərini rus əsgərləri qoruyur. Necə deyərlər, kəsəyə bax, daşa ürək-dirək verib qahmar çıxır...Əgər Paşinyan Vladimir Putinin portretlərinin cırılıb atılmasını, Rusiyanın dövlət bayrağının İrəvan küçələrində yandırılmasını təşkil etməsəydi, rusları sıxışdırıb vəzifədən və Ermənistandan qovmasaydı bəlkə də onun səmimiliyinə inanmaq olardı. Ancaq bunlarla bərabər digər qələtləri də qıran kəsə ən sadəlövh birisi belə inanmaz. Rusiyanın sərhəd qoşunlarını, 102-ci hərbi bazasını və sülhməramlı kontingentini ölkəsindən çıxarmaq üçün quyular qazan Paşinyanın yardımına Rusiya necə arxalana bilər? Məsələ heç bunda da deyil.

Rusiyada artıq anlayırlar ki, "dostlarına" yaltaqlıqla yarınmaq, istifadə etdikdən sonra xəncəri kürəyindən saplamaq ermənilərin tipik xüsusiyyətlərindən biridir ki, dünyanın heç bir millətində belə görünməmiş namərd xarakter yoxdur. Haylar yaranışlarından insana xas olmayan xüsusiyyətlərini məharətlə gizlədə biliblər, özlərini "yazıq", "məzlum" kimi tanıtmağa nail olublar. Nəhayət, riyakarlıqları faş olub. Ermənilərin yüz illər boyu yerə-göyə sığmayan həyasızlıqları və çoxüzlülükləri təəccübdən də o yana keçir. Nə qədər dondan-dona girmək olar? Cildini sifətini, simasını, əqidəsini nə qədər dəyişmək olar? Son beş ildən artıq müddətdə Rusiyaya meydan oxuyan ermənilər necə olur ki, birdən-birə dönüb canıyanan olur, ona kömək etməyə hazır olduqlarını bildirirlər? Bizdə el arasında deyirlər, nə ilə Alış? Hayların bu hərəkəti isə lap dilənçinin milyonçuya qəpik-quruş təklif etməyinə oxşayır.

Görünür, hayların ata-babadan ar-abırları yerli-dibli olmayıb. Əgər abır-həyaları olsaydı onlara öz torpağında yaşamaq və dövlət qurmaq üçün yer verən Azərbaycana yüz illərlə minnətdar olmalı idilər. Amma əksini etdilər. Ayaqlarına yer eləyəndən sonra azərbaycanlıları müxtəlif iyrənc variantlarla öz doğma torpaqlarından qovmağa başladılar, dəhşətli qətliamlar törətdilər, insanlığa sığmayan bir çox vəhşiliklər etdilər. Əslində heç bu da təəccüblü deyil. Kim bilməsə də biz bilirik bunların xislətini və xəstəliyini. Ona görə ki, onlar bütün məkr və hiylələrini bizə qarşı işlədiblər, bütün vəhşiliklərini Azərbaycan xalqına göstəriblər. Amma hayların əcaib və yaramaz toplum olduğunu tək-tək də olsa bilənlər də olub. Bəşəriyyətin yaxşı tanıdığı Karl Marks, Əmir Teymur, Aleksandr Puşkin kimi böyük simalar hayların dabbaqda gönünə bələd olublar ki, bildiyimiz o çür rişxənd və təhqir dolu fikirləri söyləyiblər. Özü də elə fikirlər ki, sanki zərgər dəqiqliyi ilə hayların boyuna biçilib. Ona görə də haylar dünyanın superhəyasızları kimi bədnam ad qazanıblar.

**Vəli İlyasov**

# "Yeni eranın gündəliyini Azərbaycan müəyyənləşdirir"



"Separatçı Araik Arutunyan Putinə məktub yazaraq ondan kömək istəməsi Qarabağda yaşayan separatçıların ağalıq dövrünün sonunun yaxınlaşdığının göstəricisidir". Bunu millət vəkili Azər Badamov "Səs" qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, Araik elə bilir ki, Putinə məktub yazmaqla öz çirkin niyyətlərini davam etdirə biləcəklər: "Amma anlamaq istəmirlər ki, onların erası başa çatıb və vəziyyətdən yeganə çıxış yolu Azərbaycana inteqrasiya olunmaqdır. Yeni eranın gündəliyini Azərbaycan müəyyənləşdirir. Qarabağda ermənilərin yaşadığı torpaqlar Azərbaycanın suverən əraziləri olduğunu bütün dünya təstiq etmişdir. O cümlədən Rusiya da separatçıların məskunlaşdığı ərazilər Azərbaycana məxsus olduğunu dəfələrlə bəyan etmişdir. Sülhməramlılar bu ərazilərdə yerləşdiriləndə inteqrasiya proseslərin və birgəyaşayış təmin edilməsi məqsədi daşıyırdı. Amma ermənilər sülhməramlıların Qarabağda olmasından sui-istifadə edərək Azərbaycana inteqrasiya olunmaq əvəzinə öz çirkin niyyətlərinə davam etdirdilər. Bu gün artıq yeni reallıq mövcuddur. Bu yeni reallıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyi Azərbaycan dövlətin daxilində təmin olması ilə bağlıdır. Separatçıların törətdikləri təxribatlar Azərbaycanın separatçıları olduğu yerdə dövlət quruluşunu bərpa edilməsi prosesini bir az da sürətləndirir. Sülhməramlıların Qarabağda mövcudluğu 2025-ci ildə başa çatacaqdır. Ondan sonra Azərbaycan əsgəri Xankəndidə yaşayan erməni əsilli vətəndaşlarımızın təhlükəsizliyinin qarantı olacaq. Separatçılar ora-bura yalvarmaq əvəzinə bu reallığı nə qədər tez qəbul edərək bayrağımız altına keçsələr, onların özləri üçün bir o qədər yaxşıdır".

**GÜLYANƏ**



V.VƏLİYEV

# Ağıl dərsi

***İnsanın ağıllanması üçün müxtəlif metodlar var. Həkimdən tutmuş, türkəçarəyə qədər. Amma onlardan da əvvəl zordur, yəni kötək, şapalaq. Düzdür, bu hər kəs üçün keçərli olmasa da, bəziləri bunsuz qana bilmir. Həm də kötəyin, şapalağın, yumruğun vaxtı keçəndə başı ağrıyır, ürəkbulanması başlayır. Gərək əlini üstündən çəkməyəsən. 44 günlük müharibəyə qədər Ermənistanla nə qədər təmaslarımız oldu? Müxtəlif şəhərlərdə, xüsusən də dünyanın 3 nəhəng dövlətinin vasitəçiliyi ilə masa ətrafında oturub olanları və gələcək planları müzakirə etdik. Amma yekun qərarın verilməsi, ermənilərin torpaqlarımızdan xoşluqla çıxması mümkün olmadı. Müxtəlif bəhanələrlə vasitəçilər də, Ermənistan da haqqımız olanı bizə qaytarmaq istəmədilər. Ara-sıra güc tətbiq edəcəyimizi müxtəlif tribunalardan eşitdirdik, yenə inanmadılar. Və nəhayət...***

44 gün davam edəcək müharibə başlandı. Bu müddət ərzində Azərbaycan əsgəri şoka düşmüş erməni dığasını yalnız üzü Ermənistana doğru qovdu, aradabir təpiklədi, kötəklədi, yumruqladı. Aydındır, zərbələrdən insan çaş-baş düşə bilər və düşməlidir. Erməni əsgəri də uzun müddət özünə gələ bilmədi və xeyli müddət keçəndən sonra torpaqları xoşluqla Azərbaycana qaytarmağın doğru yol olduğunu anlamağa başladı. Halbuki, bu məsləhəti ermənilərə və onların yandaşlarına Madriddə, Lissabonda, Praqada, Kazanda, Soçidə, Vaşinqtonda, Sankt-Peterburqda vermişdik. Kafası peyinlə dolu olanlar bunu anlamaq istəməmişdilər.

Bu gün Azərbaycan suveren ərazilərini qarış-qarış, addım-addım bərpa edir. Ermənistanla şərti sərhədlərini tam bərpa etsə də, Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyət zonasındakı ərazilərdə işlərimiz hələ də var. Separatçıların qalıqları köhnə dostlarına güvənib hələ də torpaqlarımızda civildəşirlər. Ötən iki il yarım müddətində "gəlin, inteqrasiya edin, qanunlarımızı tanıyın, hər bir Azərbaycan vətəndaşı kimi siz də normal həyat yaşayın" məsləhətini vermək üçün iki dəfə görüşmüşük. Hər iki görüşdə şapalağın, dəmir yumruğun dadını unudan ermənilər bizimlə şərtlə danışmağa başladılar. Laçın rayonu ərazisində, Həkəri çayının üstündəki körpünün yanında sərhəd-keçid məntəqəsi qurmaqla həm ölkəmizə qanuni giriş-çıxışı təmin etdik, həm də ermənilərin nəfəsliklərini, silah yollarını qapatdıq. Buna baxmayaraq hələ də "böyük qardaşları"na, "böyük bacıları"na güvənib, onların bölgədəki "sülhməramlı"larına arxalanıb müzakirələrdən yayınırlar. Azərbaycan Laçın rayonunda baş verən erməni təxribatının ardınca sərhəd keçid məntəqəsini bağlayandan sonra isə at səsi çıxaran separatçıların bu gün siçan civiltisi eşidilir. Həm də ara-sıra, çünki enerjiləri də tükənməkdədir.

Biz deyəndə ki, Azərbaycan ərazilərinə qanunsuz yüklər daşınır, buna son qoyulmalıdır, bəzi dövlətlər bu tələbi qulaqardına vurdular. Düşündülər ki, Azərbaycan onlardan çəkinib Laçındakı sərhəd-keçid məntəqəsini bağlamaz, amma bu baş verdi. İndi də tələbimiz qanunsuz erməni silahlı birləşmələrinin ərazilərimizdən tam çıxarılmasıdır. Yenə inad, yenə gözləmə mövqeyi. Deməli növbəti yumruğa ehtiyac yaranıb. "Qisas-1", "Qisas-2" oldu və ermənilər ciddiliyi anladılar. "Qisas-3"ün yetişdiyini tam əminliklə demək olar...

Ermənistanda bir sorğu keçirilib, "Laçın yolundakı sərhəd keçid məntəqəsinin bağlanmasının günahı kimdədir", sualına ermənilərin əksəriyyəti "Ermənistan" deyə cavab veriblər. Əgər əvvəllər Azərbaycanın adı daha çox hallanırdısa, bu gün o "titullu yer"ə Ermənistan layiq görülür. Respondentlərin 35%-i Laçın yolunun bağlanmasında Ermənistan hakimiyyətini günahlandırır. Cümə günü GALLUP Beynəlxalq Assosiasiyasının Ermənistan nümayəndəliyinin rəhbəri Aram Navasardyan son sorğunun məlumatlarını təqdim edərkən bildirib: "Məsələn, 2023-cü ilin yanvar sorğusunda bu rəqəm 27,8% təşkil edib", budəfəki sorğuda respondentlərin 27,8 faizi blokadada Azərbaycan hakimiyyətini günahlandırır, yanvarda isə 42,5 faiz idi. Bununla yanaşı, respondentlərin 25,2%-i blokadada Rusiya hakimiyyətini (yanvarda - 30,2%), 14,4%-i isə Türkiyəni (yanvarda - 17,2%) günahlandırır. "9,4% Rusiya sülhməramlılarını günahlandırır. Yanvarda bu göstərici 12% təşkil edib. Respondentlərin 9,6%-i günahı bütün dövlətlərdə görür. 2023-cü ilin yanvarında respondentlərin 9,8%-i bu mövqeni tutub", - Navasardyan qeyd edib. Eyni zamanda 6,7% Qarabağdakı separatçıları günahlandırıb (2023-cü ilin yanvarında 8,3%). Respondentlərin 11,2%-i cavab verməkdə çətinlik çəkib. Bu ilin yanvarında bu göstərici 4,5% təşkil edib. 4,2% digər cavablar verib (2023-cü ilin yanvarında 2,3%). İyunun 21-dən 24-dək Ermənistanda telefonla keçirilən sorğuda 1100 respondent iştirak edib.

Gördüyünüz kimi, ermənilər yalnız zopa, təpik, qapaz, yumruq ilə anlayır. Onlarla xoş rəftar etdinsə əlindəkini də, cibindəkini də itirə bilərsən. Rəqəmlərin dəyişməsindən də görünür ki, zaman keçdikcə ermənilər həqiqəti daha çox anlamağa başlayırlar. Əslində, buna el arasında "ağıl dərsi" deyirlər. Ona görə də ağıllanmaları üçün zopanı başlarının üstündən əskik etmək olmaz. Hətta, "Qisas-3" əməliyyatı da keçirmək olar. Həm də tez bir zamanda.

# Ermənistan Zəngəzur dəhlizinin açılmasına mane olur

## *Əksər nüfuzlu dövlətlər isə bu layihənin reallaşmasında maraqlıdır*






***Ermənistan, həmçinin təxminən 3 il əvvəl imzaladığı kapitulyasiya aktında yer almış digər öhdəliyi olan və Azərbaycanın əsas hissəsini onun Naxçıvan Muxtar Respublikası ilə bağlayacaq Zəngəzur dəhlizinin açılmasına mane olur.***





Bu fikirləri Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Nazirlər görüşündəki çıxışında səsləndirib. İşğal zamanı və postmünaqişə dövründə Azərbaycanın ədalətli mövqeyini dəstəkləməkdə göstərdikləri prinsipial mövqeyə görə Qoşulmama Hərəkatı ölkələrinə dərin minnətdarlığını bildirən dövlətimizin başçısı qeyd edib ki, o, xüsusilə 2020-ci və 2022-ci illərdə Qoşulmama Hərəkatı ölkələrinin BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə olan birtərəfli və qərəzli bəyanatların qəbul edilməsinin qarşısını aldıqları iki hala istinad edir.

Təsadüfi deyil ki, bu gün Azərbaycanın əsas geostrateji hədəflərindən biri Zəngəzur dəhlizinin açılmasıdır. Zəngəzurda dünya əhəmiyyətli beynəlxalq coğrafiya və geosiyasət bir-biri ilə sıx bağlı hala gəlib. 44 günlük Vətən müharibəsində Qələbədən sonra siyasi gündəmə gətirilən Zəngəzur dəhlizi məsələsi bundan sonra bütün regionun inkişafını şərtləndirən əsas amillərdən biridir. Ümumiyyətlə, bu dəmir yolunun strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişində əhəmiyyətli rol oyanayacaq və ən mühüm məsələ olan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək. Zəngəzur dəhlizi ilə həm də Avropyaya enerji ixrac edilməsi nəzərdə tutulur. Ağcabədi 330 kV-luq yarımstansiyasının tikilməsi, bu xəttin Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana çəkilməsi və həmin xətt vasitəsilə elektrik enerjisinin Türkiyəyə, oradan da Avropa bazarına ixrac edilməsi məsələsi gündəmdədir.

Ən önəmlisi odur ki, bu dəmiryol xətti gələcəkdə Azərbaycandan keçməklə Avropa ilə Asiyanı birləşdirən bir layihəyə çevriləcək. Bu da öz növbəsində Qarabağın gələcəkdə iqtisadi potensialına böyük töhfə verəcək.

Göründüyü kimi, Zəngəzur nəqliyyat dəhlizi ölkəmizin ərazisindən keçməklə Asiya ilə Avropanı birləşdirən Şərq-Qərb nəqliyyat dəhlizinin bir hissəsinə çevriləcək. Bu dəhliz, həmçinin qardaş Türkiyə Respublikası üçün önəmli iqtisadi imkanlar tanıyacaq. Türkiyə bu dəhlizdən istifadə edərək əsas iqtisadi tərəfdaşlarından biri olan Azərbaycana birbaşa quru yolu ilə hərəkəti reallaşdıracaq. Şübhəsiz ki, bu da öz növbəsində ikitərəfli iqtisadi və turizm əlaqələrinin daha sürətli inkişafına şərait yaradacaq. Digər tərəfdən, Zəngəzur dəhlizi həm də Türkiyə üçün Orta Asiyaya bir ticarət qapısı rolunu oynayacaq və qardaş ölkənin türk dünyası ilə iqtisadi əlaqələrini gücləndirməsinə imkan verəcək.

Aydındır ki, bu, təkcə Azərbaycan, Türkiyə üçün deyil, elə Ermənistanın özü üçün də sərfəli yoldur. Təbii ki, bu gün Azərbaycanın Gürcüstan, Türkiyə və Rusiya vasitəsilə Qara dəniz limanlarına çıxışı var, digər tərəfdən İran ərazisindən də istifadə edilir. Ermənistanın isə belə fiziki bağlantıları yoxdur. Bu baxımdan Zəngəzur dəhlizinin açılması Ermənistan üçün daha xeyirlidir. Belə ki, təklif və tələblərində beynəlxalq hüquqa əsaslanan, tarixi ərazisində yerləşən Zəngəzur dəhlizinin bərpasına çalışan Azərbaycanın bu niyyəti bölgədə sabitlik yaradacaq. Bu əminliyi yaradan amil isə Qarabağın və Zəngəzurun yenidən qurulması, işğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işlərinin sürətlənməsi, Zəngilanda, Füzulidə açılan və Laçında tikintisi 2024-cü ildə başa çatdırılacaq Beynəlxalq Hava limanlarıdır.

Bütün bunların fonunda sözügedən dəhlizin açılmasını istəyən və bu xüsusda əməli addımlar atan ölkələrin sayı getdikcə artmaqdadır. Xüsusən də aparıcı Qərb dövlətləri, eyni zamanda Çin və Rusiya Zəngəzur dəhlizi məsələsində indi daha çox maraqlıdırlar.

Bu yaxınlarda Rusiya Federasiyası Baş nazirinin müavini Aleksey Overçuk TASS-a müsahibəsində Zəngəzur dəhlizi ilə bağlı son vəziyyətə toxunub. Rusiya Baş nazirinin müavini müsahibəsində Qərbin Zəngəzur dəhlizi ilə bağlı mövqeyinə də aydınlıq gətirilib. Aleksey Overçuk qeyd edib ki, Qərb nəqliyyat dəhlizinin açılmasını, bu sahədə irəliləyişi dəstəkləyir. Avropa Şurasının rəhbəri Şarl Mişelin bəyanatında da bunu görmək mümkündür. Qərbin Zəngəzur dəhlizi ilə bağlı mövqeyində Overçuku narazı salan yeganə məqam bu məsələdə Rusiyanın "dəstəkləyici mövqeyinə" toxunmaması, bunu məqsədli şəkildə "unutmasıdır". Baş nazirin müavininin şikayətləndiyi bu məqam sübut edir ki, artıq indidən Zəngəzur dəhlizinin açılmasında kimin daha böyük rol oynaması ilə bağlı Rusiya ilə Qərb arasında "söz savaşı" başlayıb və bu, yəqin ki, dəhliz açılandan sonra da davam edəcək.

Çin də Zəngəzur dəhlizinə maraq göstərir. Belə ki, Trans-Avrasiya Yük Daşımalarının Beynəlxalq Koordinasiya Şurasının baş katibi Qenadi Bessonov mətbuata müsahibəsində bildirib ki, Zəngəzur dəhlizi müxtəlif seqmentlərdən ibarət olmaqla, Çin ilə Avropanı birləşdirəcək. Bu layihədə dünyanın iqtisadi nəhəngi hesab olunan Çinin xüsusi marağı var və Orta Asiya respublikaları ilə birlikdə sammit keçirib dəmir yolu xəttinin çəkilməsi barədə müqavilə imzalaması da təsadüfi xarakter daşımır. Çin Avropa ilə ixrac-idxal əməliyyatlarını daha da genişləndirmək üçün qısa, təhlükəsiz və ucuz başa gələn yol axtarışındadır. Azərbaycanın həyata keçirməkdə israrlı olduğu Zəngəzur dəhlizinin də Çin tərəfindən dəstəklənməsi təsadüfi deyil. Gələcəkdə yüklər qatarla Çindən çıxaraq Qırğızıstan-Özbəkistan-Qazaxıstan-Azərbaycan-Türkiyə üzərindən keçərək Avropaya və əks istiqamətə daşınacaq.

Göründüyü kimi, dünyanın nüfuzlu dövlətləri hər biri regional və qlobal iqtisadi layihələrə töhfə verəcək Zəngəzur dəhlizində daha çox pay sahibi olduğunu isbatlamağa çalışır. Ancaq, bu, bir həqiqətdir ki, Zəngəzur dəhlizin açılmasında həlledici rolu Azərbaycan Prezidenti İlham Əliyev oynayıb. Məhz onun qətiyyəti və iradəsi sayəsində dəhlizin açılması məsələsi bütün maraqlı tərəflər arasında razılaşdırılıb və hazırda əməli baxımdan gerçəkləşmək ərəfəsindədir. Şübhəsiz, artıq reallaşmaqda olan bu dəhliz Müzəffər Ali Baş Komandan İlham Əliyevin misilsiz xidmətlərindən biri olaraq tarixdə qalacaq.

***Nigar Orucova***

# "Ermənistan heç nəyə nail ola bilməyəcək"



**"BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinin Laçın nəzarət-buraxılış məntəqəsinin qeyri-qanuniliyinə və Azərbaycan Respublikasının bütün silahlı şəxslərinin Laçın yolundan çıxarılması tələbinə dair Ermənistanın vəsatətini rədd etməsi çox düzgün qərardır. Bu, rəsmi İrəvanın Azərbaycana qarşı apardığı qərəzli kampaniyanın iflası deməkdir". Bu fikirləri SİA-ya Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.**

Deputat bildirib ki, Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsinin yaradılması dövlətimizin müstəsna hüququdur: "Əslində, Ermənistan tərəfinin bu məsələyə hər hansı bir müdaxiləsi Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiadır. Yola sərhəddən giriş-çıxış rejimini tənzimləyəcək bu məntəqənin təsis edilməsinin yolun bağlanması kimi qiymətləndirilməsi tamamilə yanlışdır. Bununla yanaşı, 10 noyabr üçtərəfli Bəyanata əsasən, Azərbaycanın Laçın yolu üzərində səlahiyyətləri və suveren hüquqları mövcuddur. Azərbaycan hər zaman olduğu kimi, öz öhdəlikləri çərçivəsində Laçın-Xankəndi yolunda hərəkət edən vətəndaşların, nəqliyyat vasitələrinin təhlükəsizliyinə zəmanət verir və bu istiqamətdə müvafiq tədbirləri davam etdirəcək. Sərhəd nəzarət-buraxılış məntəqəsinin təsis edilməsinin "etnik təmizləmə" məqsədi güddüyü barədə rəsmi İrəvanın cəfəng iddiası qəbuledilməzdir. Məntəqədən Azərbaycanın Qarabağ bölgəsinin yerli erməni sakinlərinin hər iki istiqamətdə şəffaf, təhlükəsiz və nizamlı keçidi üçün müvafiq şərait mövcuddur".

Millət vəkilinin sözlərinə görə, Ermənistan Azərbaycanın bu yola nəzarət etməsini istəmir, çünki yol vasitəsilə Qarabağda yaşayan erməni separatçılarına silah-sursat daşımaq istəyir: "Belə halların qarşısını almaq üçün Azərbaycan haqlı olaraq Laçın yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsi yaratdı. Bundan sonra isə erməni tərəfi öz məqsədlərini reallaşdıra bilmədi. Ona görə də, beynəlxalq ictimaiyyəti aldatmaq üçün guya Azərbaycanın Laçın-Xankəndi yolunu bağladığını, Qarabağda yaşayan ermənilərin blokadaya alındığı barədə informasiya yaymağa başladı. Bu prosesdə Ermənistanın xarici havadarları da ona ciddi dəstək verirdilər.

Lakin video-görüntülər vasitəsilə beynəlxalq birlik Qarabağ ermənilərinin gediş-gəlişinin çox rahat şəkildə təmin olduğuna şahidlik etdi. Belə olan halda, Ermənistan iyunun 15-də Laçın postunda təxribat törədərək bir hərbi qulluqçumuzu yaraladı. Bundan sonra Azərbaycan tərəfi istintaqın gedişi ilə bağlı yoldan istifadəni məhdudlaşdırıb. Amma BQXC-nin vasitəçiliyi ilə insanların gediş gəlişi təmin olunur. Erməni tərəfi özünün törətdiyi təxribatdan Azərbaycana qarşı istifadə edə biləcəyini düşünürdü. Amma bu baş tutmadı.

Azərbaycan güclü dövlətdir və heç bir qüvvə dövlətimizlə təzyiq dili ilə danışa bilməz. Laçın sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması da beynəlxalq hüquq normalarına əsaslanır. Ona görə də, Beynəlxalq Ədalət Məhkəməsi başqa cür qərar qəbul edə bilməzdi. Məhkəmənin bu qərarı dövlətimizin atdığı addımın legitimliyini bir daha təsdiqləyir. Ermənistan anlamalıdır ki, beynəlxalq ictimaiyyəti aldatmağa çalışmaqla heç nəyə nail ola bilməyəcək".

*Ləman Sərraf*



# "Parisin insan haqları barədə danışmağa, ümumiyyətlə, haqqı olmamalıdır"

"Biz Fransa və inkişaf etməkdə olan istənilən dövlətin, o cümlədən Paris-Bakı münasibətlərinin müstəqillik dövrümüzü əhatə edən perioduna diqqət yetirsək, "insan haqları" xəttinin qabarıq formada davam etdiyinin şahidi olarıq. Daha doğrusu, Fransanın bu mövzuda hər kəsə "dərs keçmək" iddiasında olduğunu sezmək çətin deyil. Maraqlıdır ki, bir çox hallarda qlobal məkanda Parisin bu davranışı sükut və razılıqla qarşılanırdı. Ta ki, 2022-ci il noyabrın 1-də Əlcəzairdə Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısının açılış mərasimində və Qoşulmama Hərəkatının Bakı Zirvəsində Qoşulmama Hərəkatının sədri kimi cənab İlham Əliyevin Fransanı ifşa etməsinə qədər". Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.

Deputat sözlərinə belə davam edib: "Məhz Azərbaycan Prezidentinin cəsarətli həmləsindən sonra artıq dünya Parisə daha açıq gözlə baxmağa başladı. Bu gün Fransa Afrikada sülh və insanlıq əleyhinə cinayətləri davam etdirən, müasir dövrdə müstəmləkəçilik təfəkkürünü yaşadan, son 100 ildə 20 milyondan artıq insanı Fransız olmadığı üçün soyqırıma məruz qoyan, Avropada antisemitizm, antiislam və antitürk çağırışlarına mərkəzlik edən dövlətdir. Belə bir şəraitdə Parisin insan haqları barədə danışmağa, ümumiyyətlə, haqqı olmamalıdır.

Bu günlərdə Fransanın Nanter şəhərində polis tərəfindən 17 yaşlı Əlcəzair əsilli yeniyetmənin qətlə yetirilməsi bu tezisi bir daha sübut edir. Bütün dəlillər göstərir ki, yeniyetmə məhz irqi zəmində öldürülüb. Bu mənada isə Makron rejiminin Avropada yeni nasizm ocağını körüklədiyini, BMT-nin sülh və əməkdaşlıq məqsədləri, insan haqları hədəflərini heçə saydığını görə bilərik. Polisin əlində çoxsaylı imkan və vasitələr, xüsusi davranış protokolları olmasına baxmayaraq Fransa polisinin tabesizlik göstərən və heç bir əlavə təhdid yaratmayan yeniyetməni soyuqqanlılıqla qətlə yetirməsi bunu əyani olaraq bir daha göstərdi. Lakin beynəlxalq insan haqları təsisatları, digər regionlarda uydurma hüquqların carçısına çevrilən ixtisaslaşmış təşkilatlar bu məsələni nəinki pisləmir, ümumiyyətlə, görməzdən gəlməklə bu bəşəri cinayətə ortaq olurlar.





Təbii ki, siyasiləşmiş insan haqları təşkilatları və imperialist məqsədli Fransa dövlətindən fərqli olaraq özünün dəyərləri və ənənələri ilə qürur duyan Fransa cəmiyyəti üçün bu, ciddi utancdır və fransızlar prosesə sükutla yanaşmaq niyyətində deyil. Bu mənada Fransada başlanmış iğtişaşlar, barrikadaların qurulması, avtomobillərin, müxtəlif obyektlərin yandırılması, polislə toqquşmalar artıq prosesin sadəcə etiraz yox, kütləvi itaətsizlik olmasının göstəricisidir. Baş verənlər göstərir ki, xalqın Makron hakimiyyətinə etimadı qalmayıb. Bir neçə şəhəri əhatələyən iğtişaşlarda da hökumətin diktatura kimi davranması əleyhinə şüarlar səslənib. Bu əslində Makron hakimiyyətinin ciddi laxlaması deməkdir. Görünən odur ki, Qafqazda, Mərkəzi Afrika və Yaxın Şərqdə neokolonist niyyət sərgiləyən Makron heç Fransanın özündə artıq perspektivə malik deyil".

*Ayşən Vəli*



## Dünyanın ədalət tərəzisi

**Lalə Mehralı**

***Acgözlük əksər canlılarda var. Heyvanlarda da, insanlarda da. İnsanlarda güc hərisliyi, yemək hərisliyi, pul hərisliyi var, heyvanlarda, sadəcə, yemək acgözlülüyü. Sadəcə, insan şüurlu şəkildə edir, heyvan şüursuz. Heyvanların planı yoxdur, qidanı mühafizə edə bilmirlər, ala bilmirlər, sata bilmirlər, barter və ya bənzər sistemləri yoxdur. Maksimum doyanadəkdir acgözlülükləri, doyduqdan sonrası ilə işləri olmur.***

Amma insan...

Qazandıqca qazanmaq, yedikcə yemək, gücləndikcə güclənmək istəyir. Doyumsuzdur. Tamah, mənfəət, gəlir – adını nə qoyursa qoysun. Hərislik donunu, rəngini, cildini dəyişə bilir, amma mahiyyətini dəyişmir. "Acgöz" sözü var dilimizdə, birisi haqqında danışanda onun şəxsiyyətini təsvir etmək üçün mənfi mənada işlətdiyimiz sözdür. Əgər insan fitrətində doyumsuzluq, hərislik, acgözlük varsa, onun şəxsiyyəti heç vaxt bütöv olmur.

Məşhur bir misal var, "ac insan doyar, amma acgöz doymaz" deyə. Gözü doymayan insanı heç nə doyura bilməz, ruhu acdır çünki. Varlandıqca daha çox var istəyir insan. Qazanır, qazanır, amma doymur. Qazandıqları ömrünün sonuna yetəcək qədərdir, nəvə-nəticəsini doyuracaq qədərdir, amma yenə qazanmaq hərisliyi var.

Gözəlləşmək uğrunda da çirkin bir acgözlüyü var insanın. Bu gün dodağını əməliyyat etdirir, sabah burnunu, birisigün yanağını. Gözəllik hərisliyə çevrilir getdikcə. Çirkinliyə çevrilənədək davam edir.

Dünya yaşanılası yer deyil daha. Dünyanın bir tərəfində süd vannasında üzənlər var, digər tərəfində bir damla südə həsrət ac insanlar. Kimi bu gün alacağı son model telefonun, avtomobilin kataloqunu süzür, kimi bir loxma çörək üçün yerdə sürünür.

Varı-dövləti "itə tök" olanlar da dərd çəkir, balasını gecələr ac yatırdan da. Kimisi milyonlarını mühafizə etməyin yollarını arayır, kimisi sabah yavan çörək ala bilməyin. Kiminin böyük evi, bol qidası, yumşaq yatağı var, kiminin quru döşəməsi, qaynar günəşi, ac qarınları. Kimisi daha bir ev almaq uğrunda mübarizə aparır, kimisi sağ qalmaq uğrunda. Kimisi xərcləyib qurtara bilmədiyi milyonların üstünə milyonlar gəlsin istəyir, kimisi, sadəcə, yaşamaq.

Doymur insan. 1 evi olanda 2-cini istəyir, 2 evi olanda 3-cünü. Hər şeyin yaxşısına, yenisinə sahib olmaq istəyir. Ac gözü doymur, acgözlülüyü artdıqca ətrafı boşalır. Acgöz insanın dostu olmur. Onlar üçün tamah ən yaxın dostdur, çünki həmişə hər şeyin yaxşısını özləri üçün istəyirlər.

Təbiətdə heç bir canlı insan qədər acgöz deyil. Yırtıcı ovunu yaxalayıb qarnı doyanadək yeyib uzaqlaşır, yerdə qalanını digər canlılar yeyir. Ağaclar torpaqdan yalnız ehtiyacı olan qədər su içirlər. Quşlar taxıl zəmisindən dənlikləri doyanadək buğda yeyəcəklər, torbaları, kassaları yoxdur yığmağa. Yalnız qarışqalar dar gün üçün tədürük görürlər, o da heç kimə zərər vermədən, kimsənin azuqəsini oğurlamadan, acların payını çırpışdırmadan.

Təbiət səxavətlidir. Hamıya yetəcək qədər qida verir əslində. Problem bu qidanın paylaşdırılma mexanizmindədir. Kimisi mədəsi partlayanadək yeyə bilir, kimisi uşaqlarının aclıqdan ağlaşmasına dözmək məcburiyyətindədir. Dünyanın ədalət tərəzisinin hiylə qurulub, bəzi acgöz satıcıların tərəziyə əməl etdiyi kimi. İnsan da dünyaya oxşayıb. Mal yiyəsinə oxşamasa haram sayılır axı...



# Zəngin ənənələrə malik ali təhsil ocağımız

## Dövlət başçısının Sərəncamına əsasən, Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyi qeyd ediləcək

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti 100 yaşına təhsil və yaradıcılıq sahəsində böyük nailiyyətlərlə qədəm qoyub. Yarandığı ilk dövrlərdən etibarən Azərbaycanda mədəniyyət və incəsənət üzrə mütəxəssis hazırlayan universitet başlanğıcını 1923-cü ildə Azərbaycan Maarif Komissarlığının qərarı ilə yaradılmış Bakı Teatr Məktəbindən götürür. O zaman məşhur sənətkar, Milan və Kiyev şəhərlərində təhsil almış, opera səhnəmizin ilk professional müğənnisi, SSRİ xalq artisti Şövkət Məmmədovanın təklifi və təşəbbüsü ilə yaradılmış bu sənət məktəbi böyük inkişaf yolu keçmişdir. Məktəbdə ilk illərdən başlayaraq dərs demiş və onun inkişafında xidmətləri olmuş sənətkarlardan Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Hüseyn Cavid, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mirseyfəddin Kirmanşahlı, Aleksandr Tuqanov, Rza Sarabski və başqalarının adları xüsusi qeyd olunmalıdır. Teatr Məktəbinin ilk məzunları içərisində Fatma Qədri, Rza Əfqanlı, Şüa Şeyxov, Hacıməmməd Qafqazlı, sonrakı illərdə Əfrasiyab Bədəlbəyli, Ələsgər Ələkbərov, Ələsgər Şərifov, Gülxar Həsənova, Nəsibə Zeynalova və başqa tanınmış sənətkarlar olmuşlar. Bakı Teatr Məktəbi fəaliyyətə başladığı zamanda təkcə Azərbaycan üçün deyil, Özbəkistan, Türkmənistan, Dağıstan, Krım və digər regionlar üçün də aktyor və rejissor kadrları hazırlamağa başlayır. 1945-ci ildə Teatr Məktəbinin bazasında Teatr İnstitutu yaradılır və 1968-ci ildən bu ali təhsil ocağı Azərbaycan Dövlət İncəsənət İnstitutu adlandırılmağa başlayır. 1991-ci ildə isə İncəsənət İnstitutu Universitet statusu qazanır. İlk tələbə qəbulu teatrşünaslıq, aktyor sənəti və rejissorluq ixtisasları üzrə aparılır. 1954-cü ildə instituta Azərbaycan teatr sənətində böyük rolu olan xalq artisti Mirzəağa Əliyevin adı verilir. Bir çox musiqi xadimləri bu qocaman tədris ocağında çalışaraq mədəniyyət işçilərinin böyük bir nəslini yetişdiriblər. Görkəmli Azərbaycan dirijoru, SSRİ xalq artisti, Dövlət mükafatları laureatı Niyazi, xalq artistləri, bəstəkarlar - Hacı Xanməmmədov, Şəfiqə Axundova, müğənnilər - Rəhilə Cabbarova, Qulu Əsgərov, Lütfiyar İmanov, Milovanov, musiqişünaslar - Danil Danilov, Nailə Kərimova və başqaları burada uzun müddət fəaliyyət göstərmişlər.

1959-cu ildən burada "mədəni maarif", 1963-cü ildə isə "dekorativ tətbiqi sənət" ixtisasları üzrə mütəxəssis hazırlığına başlanılır. 1981–1991-ci illərdə burada rəngkarlıq, qrafika, heykəltaraşlıq, sənətşünaslıq ixtisasları, habelə teatr, kino, kulturologiya və bədii sənaye incəsənəti üzrə bir sıra yeni ixtisaslaşmalar açılır. 1991-ci ildə universitetin Quba rayonunda filialı yaradılır. Filial Azərbaycanın şimal bölgəsində yüksək ixtisaslı mədəniyyət işçilərinə olan ehtiyacı ödəyir. Filialın müasir tələblərə cavab verən maddi-texniki bazası vardır. 1994-cü ildən universitetin nəzdində aspirantura, 1995-ci ildən isə stajorluq-assistentura fakültəsi fəaliyyət göstərir. Son illərdə universitetdə ixtisasartırma dekanlığı və baza kafedraları təşkil edilib. 1997-ci ildə xarici abituriyentlər üçün hazırlıq şöbəsi yaradılıb. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində 2 mindən çox tələbə təhsil alır, 300-ə yaxın pedaqoq çalışır. Ali təhsil ocağının beş - rəssamlıq, kulturologiya, musiqi sənəti, kino və televiziya, teatr fakültəsi var. Bu korpusda isə üç fakültə fəaliyyət göstərir. Belə bir zəngin fəaliyyəti ilə seçilən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti 100 illik tarixə sahibdir. Bununla bağlı Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. Dövlət başçısının "Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyinin qeyd edilməsi haqqında" Sərəncamına əsasən, milli mədəniyyətin, incəsənətin inkişafında və bu istiqamətdə mütəxəssis hazırlığında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin xüsusi xidmətləri nəzərə alınaraq, Elm və Təhsil Nazirliyi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirəcəkdir.

Universitetdə Təhsil Nazirliyinin təşəbbüsü ilə yaradılan "SABAH" qrupları da fəaliyyət göstərir. "SABAH" qrupları xüsusi istedadı ilə seçilən və təhsildə göstəricilərinə görə fərqlənən tələbələrə yüksək keyfiyyətli təhsil almaq üçün əlverişli şərait yaradır. Zəngin tarixi ənənələrə malik olan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti 100 yaşını qeyd edir. Respublikanın ictimai və mədəni həyatında yaxından iştirak edən ali təhsil ocağının yetirmələri hazırda ölkəmizin və onun hüdudlarından kənarda müvəffəqiyyətlə çalışırlar. Fəaliyyətini dövlətin mədəniyyət və təhsil strategiyalarının hədəflərinə uyğun, müasir tələblər səviyyəsində quran Universitet mədəniyyətin və incəsənətin bütün başlıca sahələrini əhatə edən müvafiq ixtisaslar üzrə genişprofilli şəbəkə formalaşdırıb.

**Zümrüd BAYRAMOVA**



# 40-ı çıxıb xəbəri yox

**AFƏT**

***Sözümün canı var. Ona görə də bir balaca həsiri basmayıb, uzaqdan dolanım gəlim. Bütün dünyada olduğu kimi, ölkəmizdə də sosial şəbəkələr günbəgün artmaqdadır. Vaxtilə ən çox istifadə olunan Facebook sosial şəbəkəsi idi. Məncə, Tik-tok meydana çıxandan, o biri sosial şəbəkələrə maraq nisbətən azalıb. İnsanlar bu şəbəkələrdən informasiya əldə etmək, məktublaşmaq, şəkillərə və videoroliklərə baxmaq, dostluqlar yaratmaq, oyun oynamaq və s. məqsədlər üçün istifadə edirlər.***

Amma hər paylaşımına görə "like" yığmaq xəstəliyinə tutulan istifadəçilər də az deyil. Bir neçə il əvvələ qədər sosial şəbəkələrdə müəyyən qruplar aktiv idisə, hazırda müxtəlif yaşda olan insanlara rast gəlirik. Sizi inandırım ki, yaşlı nəslin nümayəndələri sosial şəbəkələrdə gənclərə nisbətən daha fəaldırlar. Hələ bunların çıxardıqları hoqqalardan danışmıram. İctimai nəqliyyatdan çox istifadə etdiyimə görə hər gün müxtəlif insanların məzəli söhbətlərinin şahidi oluram. Yaxın günlərdə yenə avtobusda olarkən, iki qoca kişinin bir-biri ilə söhbətinin şahidi oldum. Heç bilirsiz aralarındakı incikliyin səbəbi nədir? Bir-birilərinə "Niyə məni layk eləmədin?", "Mən səni layk eləmişdim", "Filankəsin bütün paylaşımlarını layk edirsən, bircə məni layk eləmədin" kimi küskün söhbət edirdilər. Hansı ki, heç gənclər sosial şəbəkələrdə "layk"lara belə həssas yanaşmırlar.

Psixoloqların fkrincə, hər paylaşımına "layk" yığa bilməmək insanda şüuraltı olaraq ciddi psixoloji sarsıntı yaradır. Belə olduğu halda, insanlarda ilk olaraq ikrah hissi, aqressiya, bədbinlik yaradır və belə vəziyyət də insanın sosial fəaliyyətini zəiflədir. Beləliklə də, bu platformalar hər kəsin səviyyəsini, dünya görüşünü üzə çıxarır.

Bayaq dediyim kimi, indi keçim sözümün canına. Bu günlərdə Tofiq Yaqublunun bir paylaşımına rast gəldim. Yazıb ki, fb profilində ciddi problem var, heç bir paylaşımının bəyənilməsi 40-ı keçmir. Ay nə bilim orta statistik göstəricidən çox aşağıdır. Psixoloqlar demiş, "layk" azlığı Tofiqin aqressiyasını, bədbinliyini üzə çıxarıb. Qadanız alım, nolar, biriniz ona desin ki, çoxdan ölmüsən, 40-ın da çıxıb xəbərin yoxdu, sən nə istəyirsən? Bu Tofiq özü yaxşı bilir ki, insanları küçələrə icazəsiz yığmaq və mitinq keçirmək olmaz. Belə olan halda, həmin şəxs və küçələrə çıxan digərləri haqqında mütləq inzibati tədbir görülməlidir, çünki dövlətin qayda-qanunları var. Lakin bunlara baxmayaraq, Tofiq Yaqublu yuxarıdakı ağalarından aldığı pullar və tapşırıqlar müqabilində deyilənlərə əməl etmir və özüağıldalarla bəzən icazəsiz toplaşmağa cəhd ediblər ediblər.. Dəfələrlə onların tələbləri təmin olunub və sərbəst toplaşmalarına icazə də verilib. Amma... amması ondadır ki, buna hələ də çatmırmı ki, öz "əqidədaşlarına" sizə verilən icazəli aksiyalara belə 3-5 nəfərdən artıq adam yığa bilmirsiz. Bu 3-5 nəfərə baxanda, Tofiq, ay Tofiq, sən hələ o 40 "layk"a şükür elə. Sən hələ Allahına şükür elə ki, 40-ın 4-ə düşməsin. Gəl sənə bir məsləhət verim. Sən onsuz da pulsuz iş görən deyilsən, ondan-bundan pul dilənməyi də yaxşı bacarırsan. Sən gəl fb-ni tik-toka dəyiş. İnan ki, bu çığır-bağırla, bu səsküylə bilirsən nələr qazanarsan? Özün kimilərlə oyunlara qoşul, "dostlar, ekranı tıklayın, tıklayın" deyə-deyə səsini at başına. Gör nələr qazanırsan. Bax, məndən demək, sonra demə ki, bilməmişəm, xəbərim yoxdu.



# "Separatçılar Xankəndidən qaçmağa hazırlaşır"

"Separatçıların Rusiya Prezidentinə müraciət etmələrində, hesab edirəm ki, təəccüblü bir şey yoxdu. Hələ Çar Rusiyası yarandığı ilkin dövrlərdə, Birinci Pyotrun zamanında erməni keşişləri çar sarayını su yolu eləmiş, bütün problemlərinin həlli üçün çardan yardım istəyirdilər". Bunu "Səs" qəzetinə açıqlamasında "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov deyib.

Onun sözlərinə görə, sovet dövründə Moskva imperialist siyasətini davam etdirmiş və ermənilərdən öz maraqları naminə istifadə etmişlər: "Rusiyanın bu marağından hiyləgərcəsinə yararlanan erməni-hay başbilənləri, məhz bunun nəticəsində qədim türk-Azərbaycan torpaqlarında özlərinə dövlət qurmağa nail oldular. Bu gün hər yerdən, o cümlədən Ermənistan dövlətindən də ümidləri kəsilən separatçı hayların son ümid yeri yenə Rusiyadır, Moskvadır. Əslində, bu müraciət Azərbaycandan daha çox indiki Ermənistan hakimiyyətinə meydan oxumaqdır. Dalana qısılan kaputilyator Ermənistanın Qarabağda yaşayan erməniləri müdafiə etməsi, de-fakto mümkün deyil. Dünyadakı ikili standartlarla onlara indiyə kimi dəstək verənlər də bunu edə bilmirlər. Birincisi, Ermənistan əgər öz tör-töküntülərinə dəstək vermirsə, heç yerdə tanınmayan bir terror qruplaşmasına dəstək vermək həmin ölkənin də beynəlxalq nüfuzuna ciddi xələl gətirə bilər. İkincisi, bura Azərbaycan ərazisidir və beynəlxalq hüquqi aktlar onlara kənardan dəstək verilməsini Azərbaycanın daxili işlərinə müdaxilə kimi dəyərləndirməyə imkan verir ki, bu da indiki dünyada ən çox qəbul edilməyən addım hesab edilir. Belə olan təqdirdə hələ də Azərbaycanda yaşayan və Azərbaycan vətəndaşlığını qəbul etmək istəməyən separatçıların son ümid yeri yenə Rusiyadır. Təbii ki, Rusiya Qafqazdakı maraqlarını təmin etmək, bu regionda nəzarətini qoruyub saxlamaq üçün separatçıların bu müraciətindən istifadə edə bilərdi və etmək istəyərdi. Lakin bu imperialist təfəkkürlü nüvə dövlətinin indiki durumunda buna risq edəcəyinə, şəxsən inanmıram. Belorusiya ilə birgə Şimal Buzlu Okeanından Qafqaza qədər dünyaya açılan bütün yolları bağlanan Rusiya üçün Azərbaycan və Türkiyə, de-fakto nəfəs borusu rolunu oynayır. İnanmaq çətindi ki, indiki vəziyyətdə Rusiya Azərbaycanın və Türkiyənin maraqlarına qarşı erməni separatçılarının arzularını həyata keçirmək barədə düşünsün. Əslində bu müraciəti göndərən Araik Arutyunyan da bunu bilməmiş deyil. Sadəcə, ətrafındakı separatçılara, dünya erməni diasporasına "mən bütün vasitələrə əl atıram" mesajını vermək üçün bu cür üsullara əl atır. Bir sözlə, əslində bu müraciətlə Araik də, onun separatçı ətrafı da tutmaq üçün divarları qalmadığını bir daha göstəmiş oldu. Ermənilər gözəl bilirlər ki, Azərbaycan tərəfin planlı, təmkinli, müdrik addımlarının sonu onların ya vətəndaşlığı qəbul etməklə dinc yaşamalarına, ya da Azərbaycan ərazisini tərk etmələrinə gətirib çıxaracaq. Son çırpıntılarının bir nəticə verməyəcəyini gözəl bilirlər. İnanıram ki, yaxın aylarda bunu görəcəyik".

**GÜLYANƏ**

# Fransadakı "demokratik" ab-hava

## *Prezident İlham Əliyev: "Fransa hətta Korsika dilinə qadağa qoyur və etnik azlıqlar konsepsiyasını qəbul etmir"*




***Fransanın sərgilədiyi "dəyərlər", əslində, onun demokratik ab-havanı boğmasından xəbər verir. Bu gün müasir, sivil dünyada yaşadığımız zamanda, xüsusilə də, özünü dünya xalqları arasında demokratik ruhlu dövlət kimi təqdim edən Fransa təəssüflə qeyd etməliyik ki, diktəsində insanların hüquqlarını pozulmasına hökm verməkdə davam edir. Müstəmləkə altında olan xalqlara öz dillərinin istifadəsini qadağan edib. Keçirilən təhsil proqramlarının dilinin yalnız fransız dilində olması əlbəttə ki, mövcud vəziyyəti təhlil edən amillərdəndir. Bir xalqı məhv etmək üçün onun dilinin əlindən alınması bşdıca şərtdir.***




Dil həm də dünya haqqında təsəvvür yaradan təbii intellektual sistemdir və hər bir dil ayrılıqda dünya haqqında bilik, dünyanı görmək və anlamaq üçün vasitədir. Hazırda Yer üzündə 7000-ə yaxın dil mövcuddur və dünyanın yeddi dili dünya dilləri hesab olunur: ingilis dili, ispan dili, ərəb dili, rus dili, fransız dili, alman dili, portuqal dili. Dilin yoxa çıxması bütöv bir biliklər sisteminin qeybə çəkilməsi kimi xarakterizə olunur. İstənilən bir xalqın dilinin məhvi, sıradan çıxarılması xalqların çoxəsrlik yaddaşının yoxa çıxması deməkdir. Bildiyimiz kimi, Korsikanın yerli parlamentində Korsika dilinin qadağan edilməsi ada sakinlərinin qəzəbinə səbəb olmuşdur. Burada müstəmləkə altında olan xalqlara ayrı-seçkilik siyasəti tətbiq edilir. Fransanın sərgilədiyi tarixi müstəmləkəçilik, insanların qətlə yetirilməsi bir daha deməyə əsas verir ki, bu dövlətin artıq demokratiya haqqında danışmağa haqqı yoxdur. Fransa hakimiyyətinin insanların dilinə olan münasibətinin qəzəblə qarşılanması onların ucaldılan haqq səsidir. Korsikada baş verən hadisələr diqqətdən kənarda qalmır.






Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda keçirilən nazirlər görüşündə Azərbaycan Prezidenti İlham Əliyev çıxışında qeyd edib ki, Fransa hətta Korsika dilinə qadağa qoyur və etnik azlıqlar konsepsiyasını qəbul etmir, lakin, eyni zamanda, özünü Azərbaycandakı erməni milli azlığının müdafiəçisi kimi göstərməyə çalışır: "Bu, riyakarlıq və ikili standartlardan başqa bir şey deyil. Fransa hakimiyyəti başqalarına mühazirə oxumağa cəhd etmək əvəzinə, öz ölkəsində bu cür narahatedici meyillərlə mübarizə aparmalıdır".

Korsikada yalnız fransız dilinin istifadə oluna biləcəyinə dair hökm ayrı-seçkilik və beynəlxalq qanunların pozulmasıdır. Korsikalıların azadlıq mübarizəsini qan içində boğmaba cəhd edən Fransa 1768-ci ildə buranı işğal etmiş və bu regionda törətdiyi qətl və vəhşilik aksiyalarının sayı artıq bəlli deyil.

Korsika dilinin fransız dili ilə eyni şəkildə tanınması hazırkı tələblərin əsasını təşkil edir. Təxminən 150 min nəfərin danışdığı korsika dili yox olmaq təhlükəsi ilə üz-üzədir. Fransa beynəlxalq arenada xalqların azadlıq və ədalətlə bağlı arzularına sədd çəkərək bəşəri cinayətlərin müəllifinə çevrilib. Bu illər ərizində Korsikada törətdiyi bəşəri cinayətlərə görə cəzasız qalması Fransanın bu əməllərini davam etməsinə "imkanlar açıb"dır. Müasir dünyanın gözü qarşısında Korsikanın informasiya blokadasına alınması, antiterror əməliyyatlar adı altında adanın azadlıq mübarizəsinə qarşı Fransa hökumətinin addımları onun repressiya siyasətinin "uğurla" gerçəkləşməsinə səbəb olan amillərdir.

Bu gün "azadlıqdan" dəm vuranlar əməlləri ilə üz-üzədirlər. "Fransada, xüsusilə də mediada və internetdə müəyyən etnik azlıqlara qarşı davamlı və geniş şəkildə yayılmış irqçi, ayrı-seçkilik salan fikirlər, rəsmi şəxslər və parlamentin iki palatasının üzvləri tərəfindən irqi nifrət xarakterli çıxışlar getdikcə artmaqdadır. Bu yaxınlarda Əlcəzair əsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsi bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir əlamətidir. Bu baxımdan, biz BMT-nin polisin atəş açmasını pisləyən və Fransanı "hüquq-mühafizə orqanlarında irqçilik və ayrı-seçkiliyin dərin problemlərini ciddi şəkildə həll etməyə" çağıran bəyanatını dəstəkləyirik" - deyə Prezident bildirib. Hazırda Fransada olan qarşıdurmalar Emmanuel Makronun siyasəti nəticəsində yaranıb. Azad şəkildə sözünü demək istəyən insanlara güc tətbiq edilir və onlar susdurulur.

Dövlətə edilən müraciətlər gərginliklə qəbul olunur. Gənclərin öldürülməsi, polis zorakılığı, haqsız yerə həbsləri dünya ictimaiyyətinin diqqətindədir. Fransanın insanlara yenidən azadlıq vermək üçün bütün çikin əməllərini kənara qoymalıdır. "Əcdadları müstəmləkə siyasətinə məruz qalmış, qul kimi istifadə olunmuş, öldürülmüş, işgəncələr verilmiş və alçaldılmış insanlardan milyonlarla insanın qarşısında üzr istənilməsi yalnız Fransanın tarixi günahının etirafı olmayacaq, həm də Fransanın əlcəzairli yeniyetmənin vəhşicəsinə öldürülməsindən sonra qarşılaşdığı dərin siyasi, sosial və humanitar böhranın nəticələrinin aradan qaldırılmasına kömək edəcək", deyən Azərbaycan Prezidenti onu da qeyd edib ki, Fransa öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməlidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

---



İLHAM

# Psixoloji sarsıntı Tofiq Yaqublunu bitirəcək

***Oxuduqlarıma, eşitdiklərimə və gördüklərimə əsasən demək olar ki, insan nə edirsə, onun qarşılığını alır. Yəni pislik edirsə pislik, yaxşılıq edirsə yaxşılıq qazanır. Təəssüf,elə insanlar var ki, bu gerçəkliyi anlamırlar. Səhvlərini və pis vərdişlərini davam etdirir, hətta bir qədər də təkmişləşdirməklə genişləndirirlər ki, bu da sonda onların sağlamlığının əllərindən alınmasına, cəmiyyətdə qınaq obyekti olmalarına gətirib çıxarır.***

Fikir verin, AXCP sədri Əli Kərimli siyasəti arenada peyda olub, xarici maraqlı dairələrin ayırdığı pulların sehrinə düşdükləri vaxtdan Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı düşmən münasibət səriləyib. Lakin onun bu xisləti ziyanına işləyib, dost-tanışı, qohum -əqrəbası ondan üz döndəriblər. Xüsusilə də, Kərimovlar nəsli onunla əlaqələrini kəsib, ağsaqqalları hüquq -mühafizə orqanlarından Ə.Kərimlinin cəzalandırılmasını tələb ediblər. Dəfələrlə əmisi oğlanları, bacısı uşaqları, ağsaqqaları Bakı şəhərinə gələrək Əli Kərimlinin evinin qarşısında onun xarici maraqlı dairələrin sifarişləri əsasında dövlətçilik əleyhinə fəaliyyətinə qarşı etiraz aksiyası keçirmişlər. Görünən isə ondan ibarətdir ki, Ə.Kərimli yaxın qohumlarının, ümumilikdə cəmiyyətin tənqidlərindən nəticə çıxarmır. Çirkin və erməni maraqlarına hesablanan siyasətini və fəaliyyətini davam etirir. Məsəl var, "atı atın yanına bağlasan həmrəng olmasa da, həmxasiyyət olar"... Ə.Kərimlinin ətrafında olanlar onun kimi düşüncə tərzinə və təfəkkürə malikdirlər.

Misal kimi cəmiyyətdə "Sorosun uşaqları" qrupunun fəal üzvü kimi tanınan Tofiq Yaqublunun ağlına deyil, ağzına gələnləri danışmasını göstərmək olar. Son günlər T.Yaqublu fəaliyyətini daha da genişləndirərək birbaşa xarici qaranlıq dairələrin Azərbaycanla bağlı qərəzli tezislərini yaymaq üzərində qurub. Özünü müxalifətin "cəsur" nümayəndəsi kimi də təqdim etməyə çalışan T.Yaqublu aradabir həmfikirlərini qınamaqdanda çəkinmir. Sosial şəbəkələrdə yazdığı statuslarında giley-güzar edir ki, paylaşmalarına 40 nəfərdən artıq insan dəstək vermir. Yəni, bu biçarənin dərdi bəyənmədir ki, sosial şəbəkə istifadəçiləri bunu ona çox görürlər. Başqa cür də ola bilməz. Çünki sosial şəbəkə istifadəçiləri də T.Yaqublunun yazdıqlarının cəfəng, şər və böhtandan başqa bir şey olmadığını anlayırlar. Başa düşürlər ki, T.Yaqublunun yazdığı statuslar birbaşa Soros fondunun Qafqaz üzrə sözçülərinin sifarişidir. Sosial şəbəkə istifadəçisi T.Yaqublunun Fransanı müdafiə etməsinə dəstək verə bilərmi, təbii ki, verməz. Hansı azərbaycanlı iyulun 5-6-da Bakıda Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində keçirilən toplantısında iştirakçıların Fransanın müstəmləkə siyasətinə qarşı sərt mövqedən çıxış etməsinə qarşı çıxar bilər? Nəzərə almaq lazımdır ki, iyulun 6-da Bakı Konqres Mərkəzində Qoşulmama Hərəkatının (QH) Əlaqələndirmə Bürosunun nazirlər görüşü çərçivəsində "Kolonializmin tamamilə aradan qaldırılmasına doğru" mövzusuna həsr olunan tədbirdə iştirakçılar Fransanın müasir müstəmləkəçilik siyasətinin aradan qaldırılması yolları, Afrika qitəsində və dünyanın müxtəlif regionlarında hazırda mövcud olan köləliyin kökünün kəsilməsi üçün zəruri addımların atılması istiqamətində fikir mübadiləsi aparıblar. Sonda bəyanat qəbul edilib. Bəyanatda iştirakçılar Fransa müstəmləkəçiliyinə qarşı Bakı Təşəbbüs Qrupu yaradılmasına dair razılığa gəliblər. Söz yox ki, dünya xalqlarının, o cümlədən azərbaycanlıların ürəyincə olan bəyanatın qəbul edilməsinə qarşı çıxmaq ermənidən betər erməni olmaq deməkdir. Deməli, T.Yaqublu növbəti dəfə Koçaryanla, Sarkisyanla, Ohanla həmrəylik nümayiş etdirir. Ya da erməni diasporundan maddi və mənəvi yardım qarşılığında sifariş alıb.

***Amerika və Avropadakı moderatorlar artıq İrəvanın danışıqlar prosesini qəsdən uzatdığından şübhə etmirlər. Çətin vəziyyətə düşməməyə çalışsalar da, danışıqları müsbət istiqamətə yönəltməyə çalışırlar. Moskvaya gəlincə, o, təbii ki, əvvəlcə erməni tərəfinin əhval-ruhiyyəsini anladı və ola bilsin, bundan öz maraqları üçün istifadə etdi.***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# “Ermənistan region ölkələri üçün problemlər yaradan geosiyasi itdir”

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*




## Qazaxıstanlı politoloq: “Biz və regiondakı qonşularımız açıq şəkildə Ermənistanı MDB məkanında ən zəhərli siyasi autsayder adlandırırıq”







Eyni zamanda, İrəvanın destruktiv siyasəti təkcə siyasi və diplomatik yolu ləngitmir, onunla bağlı bütün innovativ prosesləri dondurur, məsələn, Zəngəzur dəhlizi ilə beynəlxalq nəqliyyat tranzitinin işə salınması- bunda təkcə Azərbaycanın deyil, həm də Mərkəzi Asiya ölkələrinin əksəriyyətinin maraqları var. Rusiya Federasiyası ərazisindən keçən köhnə marşrutlardan istifadə etməyə məcbur olan Xəzər dənizinin o tayındakı bir sıra Mərkəzi Asiya dövlətlərinə qarşı Qərbin ikinci dərəcəli sanksiyaları təhlükəsi qarşısında Zəngəzur dəhlizi ilə yüklərin daşınması imkanlarının Ermənistan tərəfindən əngəllənməsi bütün regionun planlarını pozur. Qazaxıstanlı politoloq Azat Axmetovun Caliber.az-a müsahibəsində dediyi kimi, Ermənistan birbaşa və dolayısı ilə bir sıra ölkələr üçün bir çox problemlər yaradan geosiyasi itdir.

“Uzun illərdir ki, iqtisadi, qismən də siyasi təcrid vəziyyətində olan Ermənistan işğalçılıq siyasəti ucbatından bir çox üstünlüklərini itirib və müxtəlif ssudalarla dolanmağa, az qala yemək üçün müxtəlif növ yardımlar dilənməyə öyrəşib. Onun rəhbərliyi reallığı obyektiv dərk etməkdən tamamilə məhrumdur. Aramsız erməni revanşizmi vəziyyəti gərginləşdirməkdə davam edir və açıq qıcıq yaradır, o cümlədən bir sıra Mərkəzi Asiya ölkələrində.

Əminliklə deyə bilərəm ki, biz və regiondakı qonşularımız açıq şəkildə Ermənistanı MDB məkanında ən zəhərli siyasi autsayder adlandırırıq. Və bu, həm siyasi müstəvidə, həm də pərdəarxası görüşlərdə, əgər orada erməni siyasətçiləri varsa, bu artıq açıq şəkildə eşidilir. Və erməni separatçılarının Azərbaycan torpaqlarında davamlı təxribatları, Ermənistan silahlı qüvvələri tərəfindən az qala hər gün qonşu ölkənin ərazisini atəşə tutması Ermənistanın Cənubi Qafqazda sülh istəmədiyindən xəbər verir. Ona görə də heç kim rahatlamamalıdır”,- A.Axmetov deyir.

İndi belə bir vəziyyət yaranıb- politoloq qeyd edir- bir çox ölkələr müəyyən mənada Ermənistandan, onun quduz millətçiliyindən və əsassız siyasi iddialarından asılı vəziyyətə düşüblər. İrəvan isə bunu praktiki olaraq nümayiş etdirir. Ancaq boş yerə- çıxış yolu tapılacaq və bundan yalnız Ermənistanın özü pis vəziyyətdə qalacaq.

“Rusiya ərazisindən keçən nəqliyyat marşrutlarının obyektiv şaxələndirilməsi, bu ölkə ilə iqtisadi əlaqələr fərqli geosiyasi reallıq yaradır, burada Xəzər dənizi vasitəsilə Azərbaycanla əlaqə əsas strateji magistraldır. Məhz bu yol, həm də Zəngəzur dəhlizindən keçən Çindən Avropaya uzanan “Orta Dəhliz” strategiyası bir çox cəhətdən ölkələrimiz üçün günümüzün reallıqlarını formalaşdırır. Lakin bu gün Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistanın yeni nəqliyyat marşrutlarını ən sərfəli və rahat şəkildə inkişaf etdirməsinə mane olan Ermənistandır- öz ərazisindən tranzit imkanlarına mane olur. Amma iki ildən artıqdır ki, kommunikasiyaların açılmasını səbirlə gözləyirik.

Üstəlik, Ermənistan bölgədə vəziyyəti qəsdən pozur, daim revanşist şüarlar səsləndirir, Azərbaycanla yeni müharibəyə çağırır. Hətta dövlət səviyyəsində hələ də İrəvandan Bakıya qarşı təhdidlər var, baxmayaraq ki, bu ölkə 44 günlük müharibənin nəticələrinə görə birmənalı şəkildə təslim olub və bununla bağlı öhdəliklərini heç şübhəsiz yerinə yetirməlidir. Tamamilə başa düşüləndir ki, iri qərbli investorların da belə bir vəziyyətdə şübhələri var- onlar Cənubi Qafqazda nəhayət ki, siyasi gərginliyin baş verəcəyini gözləyirlər. Bütün bunlar Mərkəzi Asiya ölkələri üçün tranzit perspektivlərini xeyli ləngidir, onlar indi dəhlizdə qonaq rolunda olurlar, burada dost olmayan Ermənistan qonaq otağına gedən yolu kəsib, əllərini beyninə qoyub, heç kimiə içəri buraxmaq istəmir.

Allaha şükür, başqa imkanlar və yollar da var: Bakı-Tbilisi-Qars dəmir yolu tranziti və Mərkəzi Asiya ölkələri üçün Avropaya tranzit artıq qurulub və göz qabağındadır. Yerevan Üçtərəfli Bəyanat üzrə öhdəliklərinin yerinə yetirilməsinə mane olmaqda davam edərsə, Ermənistanın sadəcə olaraq yan keçəcəyi, lazımsız halqa kimi kənara qoyulacağı saat uzaqda deyil. O zaman Ermənistan üçün ən qara günlər gələcək, çünki regionda apardığı destruktiv siyasətə görə Avropa İttifaqının ona qarşı sanksiyalar tətbiq etməsinə qədər heç nə istisna edilmir. Təkcə ona görə ki, təkcə Mərkəzi Asiya ölkələri, Azərbaycan, Gürcüstan və Rusiya deyil, Qərbin özü də tranzit marşrutlarını tez bir zamanda qurmaq istəyir- bu proseslərin ilk sifarişçisidir və belə qüvvələrlə zarafat etməyə dəyməz”- qazaxıstanlı politoloq bildirib.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
8 iyul
2023-cü il

# Qarpız kəsdim bal kimi: Dilimlədim, zəhərdi ki!



*Yayın ən məşhur meyvələrindən biri də şübhəsiz ki, qarpızdır. Hər meyvəni öz mövsümündə istehlak edənlər bilir ki, avqust ayından öncə qarpız yeyilməsi təhlükəlidir. Lakin havaların ildən-ilə daha çox isinməsinin, qlobal istiləşmə probleminin artmasının qarpızın erkən yetişməsinə də təsir etdiyi iddia edilir. Bu səbəbdən hələ may ayından etibarən bazarlara ayaq açan qarpızın alıcısı da az deyil.*





### Qarpız yeyirsən olmur, yemirsən yenə olmur

Qan-qırmızı, şirin dadlı qarpızları seçmək üçün tərəvəz dükanlarında çox vaxt keçirənlər kifayət qədərdir. Çünki yaxşı qarpızı seçməklə iş bitmir, bunun bir də təhlükəli tərəfi var, çünki qarpız nitrat zəhərlənməsinə səbəb ola bilər və sağlamlığınızı riskə atar.

Qarpız yetişdirilərkən istifadə edilən azot gübrələrindən normadan çox istifadə edildiyi üçün qarpızda nitratın miqdarı artıq ola bilər. Həddindən artıq nitrat qəbulu insan orqanizmi üçün zəhərlidir və tərkibində bol miqdarda nitrat olan qarpız yeməklə qida zəhərlənməsi baş verə bilər. Qarpız yedikdən ən az 2 saat sonra özünüzdə ürəkbulanma, qusma, güclü ishal, başgicəllənmə, başağrısı, mədə sancısı, temperatur kimi simptomlar görürsünüzsə, nitrat zəhərlənməsi yaşayırsınız və dərhal həkimə müraciət etməyiniz tövsiyə olunur.

### Qarpızın zəhərli olduğunu necə bilmək olar?

Qarpızın qida zəhərlənməsinə səbəb olma riskini sadalayacağımız əlamətlərə diqqət yetirməklə müəyyən edə bilərsiniz. Qarpızda nitratın çox yüksək olduğunu qabığın iç tərəfinin sarı olduğundan bilmək olar. Qarpızı kəsərkən qabığın daxili kənarlarının sarı olduğunu görsəniz, o qarpızı yeməməlisiniz, zəhərlənə bilərsiniz. Qabığın çöl tərəfi yaşıl, içəri tərəfi ağ rəngdən ibarət olmalıdır.

Nitrat, əslində, bitkilərin sürətli böyüməsinə kömək edən bir komponentdir. İstehsalçılar qarpızların çox qısa müddətdə yetişməsi və böyüməsi üçün həddindən artıq nitrat ilə yetişdirirlər. Bu qarpızları yeyən şəxsin nitratdan zəhərlənməsi tamamilə gözləniləndir.

Qarpızda deşiklər varsa almayın. Satıcı sizə bu dəliklərin həşəratlar tərəfindən yarana biləcəyini, yaxud da daşınma prosesi zamanı olduğunu deyəcək, lakin bu dəliklər iynə izləri ola bilər. Suvarma zamanı nitrat verilməsi azmış kimi meyvəsinə də iynə ilə tez yetişməsinə səbəb olacaq komponentlər vurulur. Qabığında deşik olan qarpızın içi ləzzətli olsa da, yeməməyiniz məsləhətdir.

Bəzən qarpızı kəsdiyiniz zaman tam ortasında özək yerinə böyük boşluq, çuxur görürük. O boşluq, əslində, qarpızın hormonlarla zəngin olduğunun göstəricisidir. Bu növ qarpızı yemək sizi xəstə edə bilər.

Aldığınız qarpızdan şübhələnirsinizsə, çox sadə bir testlə həddindən artıq nitratla zəngin olub-olmadığını öyrənə bilərsiniz. Bir stəkan suyun içinə kiçik bir parça qarpız qoyun və rənginin çıxmasını gözləyin. Əgər suyun rəngi açıq çəhrayı rəngə çevrilirsə, bu, o deməkdir ki, o qarpızda çoxlu nitrat var, onu heç vaxt yeməyin.

### Xərçəngə aparan dadlı yol

Qarpızın içindəki böyük çatlar böyük təhlükənin əlaməti ola bilər. Bu çatlar "forxlorfenuron" adlı süni böyüməyə təşviq edən kimyəvi maddənin nəticəsidir. "Forxlorfenuron" böyüməni sürətləndirdiyi üçün bu çatlar sürətlənmiş böyümədən sonra müşahidə edilir. "Forxlorfenuron"un istifadə etdiyi meyvələr təbii meyvələr kimi təzə və yetişmiş, bəzən hətta təbii meyvələrdən daha gözəl görünə bilər. Bu görüntü həmin məhsulları gözəgəlimli etsə də, dadındakı fərq hiss olunur.

"Forxlorfenuron", ABŞ kimi bəzi ölkələrdə rəsmi orqanlar tərəfindən təsdiqlənmiş bir neçə hormonal maddələrindən biridir. Bəzi araşdırmalara görə, bu kimyəvi madde xərçəngə səbəb ola bilər. Lakin ABŞ Qida Administrasiyası bunun əksini iddia edir və araşdırmalarda insanlar və heyvanlar üzərində heç bir yan təsirin müşahidə edilmədiyini iddia edir. İndi hər şeyin bazar iqtisadiyyatına görə tənzimləndiyini, bütün planların daha çox maddi gəlir əldə edilməsi uğrunda qurulduğunu nəzərə alsaq, o zaman bu iddianın da gerçək ola biləcəyini düşünmək olar. Üstəlik, xərçəng statistikasının hər il yüksəldiyini nəzərə alaraq...

"Forxlorfenuron" hormonu meyvəni o qədər tez yetişdirir ki, qarpızın adət etdiyimiz o qan-qırmızı rəngi tam formalaşa bilmir. Qarpız dişləndikdə yavan dad verir, suyu-şirəsi normal qarpızdan qat-qat az olur. Hormonun təsiri ilə vaxtından əvvəl yetişən qarpızın tumları adət etdiyimiz qara rəngdən çox fərqlənir. Hormonal qarpızlarda qara və qalın toxumlar yerinə ağ və nazik toxumlar olur.

### Yemək olar, amma diqqəti əldən verməmək şərti ilə...

Bəzən daha qənaətcil olması üçün daha yüngül qarpız seçməyə çalışırıq. Lakin qarpızın ağır çəkisi onun tam yetişmiş və sağlam olduğunu göstəricisidir. Yəni, kiçik ölçülü qarpız da alsanız, mütləq ağır olanını seçin.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyir ki, xüsusi cihazla qarpız-yemiş, digər kənd təsərrüfatı məhsullarının tərkibindəki nitritlərin miqdarını yoxlamaq mümkündür: "Deyə bilərəm ki, məhsulların tərkibindəki nitritlərin miqdarı getdikcə azalmağa başlayıb. Bu gübrənin qiymətinin getdikcə bahalaşmasından qaynaqlana bilər. Amma fermerlər qarpız məhsulunun böyük olması üçün çoxlu miqdarda gübrədən istifadə edir. Qarpız, yemiş elə növ məhsuldur ki, öz mövsümündə də nitratla zəngin ola bilir. Normalda, icazə verilən sanitar normada deyilir ki, 1 kq qarpızda 60 mq-dan artıq nitrat olmamalıdır. Amma apardığımız müşahidələrdən və araşdırmalardan sonra görürük ki, 1 kq qarpızda hətta 200-300 mq nitrat olur".

***Lalə Mehralı***

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Britni Spirs döyüldü!



Amerikalı müğənni Britni Spirs şiddətə məruz qalıb. Hadisə Las-Veqasdakı məşhur "Aria Resort & Casino"da baş verib. Məsələ burasındadır ki, xanım müğənni fransalı basketbolçu Viktor Vembanyamanın mühafizəçisi tərəfindən döyülüb. İdmançının mühafizəçisi Britniyə şillə vurub. Britni Spirs onunla birgə şəkil çəkdirmək istəyib. Daha sonra müğənni onun kürəyinə, sağ çiyninə sığal çəkib və mühafizəçi əlinin arxası ilə ona zərbə endirib. Britni Spirs yerə yıxılıb. Məlumatlarda deyilir ki, müğənninin vəkili hüquq-mühafizə orqanlarına müraciət edib, təhqiqat başlayıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**

## ELAN

**Feyzullayev Nicat Atamoğlan oğluna məxsus 818251 nömrəli Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**